QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!

# SƏS



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 212 (5932) **16 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Şimali Qafqaz xalqları ilə Azərbaycan xalqını çoxəsrlik dostluq, əməkdaşlıq və qardaşlıq tarixi bağlayır"

*Prezident İlham Əliyev Rusiyanın Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib*



Səh 2

6

Dünya dini liderlərinin II Bakı Sammitinin yekunlarına dair mətbuat konfransı keçirilib



6

"Azərbaycan dünyada multikulturalizm və dinlərarası əməkdaşlıq diyarı kimi tanınır"



9

"Hazırda Azərbaycan Rusiya üçün çox dəyərli və vacib tərəfdaşdır"



# “Şimali Qafqaz xalqları ilə Azərbaycan xalqını çoxəsrlik dostluq, əməkdaşlıq və qardaşlıq tarixi bağlayır”

## *Prezident İlham Əliyev Rusiyanın Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Rusiya Federasiyasının Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev qeyd edib ki, Qafqazda qarşılıqlı fəaliyyət, əməkdaşlıq və dinlərarası dialoq məsələləri həm Rusiya, həm də Azərbaycan üçün vacibdir:***

-Sizə bir daha “Xoş gəlmisiniz!” demək istəyirəm, sizi yenidən görməyimə şadam. Çox şadam ki, Şimali Qafqaz respublikalarının dini liderləri Azərbaycanda tez-tez qonaq olurlar. Artıq uzun illərdir ki, biz görüşür, söhbət edir, dinlərarası dialoq, təhsil, Qafqazın dini liderlərinin qarşılıqlı əlaqələri ilə bağlı mühüm məsələləri müzakirə edirik. Hesab edirəm ki, bizim görüşlərimiz və fikir mübadilələri Qafqazda sülhün, təhlükəsizliyin və əməkdaşlığın möhkəmlənməsi üçün çox böyük əhəmiyyət kəsb edir. Əlbəttə ki, bizim görüşlər və sıx qarşılıqlı əlaqələr çox uğurla inkişaf edən və artıq çoxdan bəri strateji tərəfdaşlıq səviyyəsinə çatmış Rusiya-Azərbaycan münasibətlərinin mühüm amilidir.

Rusiya Prezidenti Vladimir Vladimiroviç Putinlə mənim çoxsaylı görüşlərim bizim dostluq, mehriban qonşuluq əlaqələrimizin daha da möhkəmlənməsində çox mühüm rol oynayır. Bu yaxınlarda - ötən ay mən Rusiya Prezidentinin dəvəti ilə Soçidə “Valday” Diskussiya Klubunun işində iştirak etdim və həmin səfər çərçivəsində Rusiya Prezidenti ilə də görüşümüz oldu. Biz münasibətlərimizin çox geniş gündəliyinə bir daha nəzər saldıq və əlaqələrimizin bütün istiqamətlər üzrə durmadan inkişaf etdiyini bir daha gördük. Əlbəttə, Qafqazda qarşılıqlı fəaliyyət, əməkdaşlıq və dinlərarası dialoq məsələləri həm Rusiya, həm də Azərbaycan üçün vacibdir. Hamıya yaxşı məlumdur ki, Şimali Qafqaz xalqları ilə Azərbaycan xalqını çoxəsrlik dostluq, əməkdaşlıq və qardaşlıq tarixi bağlayır. Biz, sadəcə, atalarımızın, babalarımızın ənənələrini davam etdirir, əlaqələrimizi möhkəmlədir, bununla da Qafqazda təhlükəsizliyin, sabitliyin və inkişafın möhkəmlənməsi işinə çox böyük töhfə veririk. Dəfələrlə dediyimiz kimi, Qafqaz vahid orqanizmdir, o elə bir məkandır ki, orada yerli xalqlar əsrlərboyu yaşayır, qurur, yaradırlar, memarlıq abidələri yaradırlar və gələcəyə inamla baxırlar. Əlbəttə, hesab edirəm ki, Qafqazda təhlükəsizliyin daha da möhkəmlənməsi və əməkdaşlığın inkişafı üçün Rusiya-Azərbaycan münasibətləri həlledici rol oynayır. Şadam ki, siz bu Sammitdə iştirak edirsiniz. Sammit həm də qlobalmiqyaslı hadisədir. Mənim fikrimcə, bu qəbildən olan və bu səviyyədə təmsil olunmuş Sammit dünya arenasında nadir hadisədir. Əlbəttə, Zati-müqəddəsləri, Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin iştirakı və onun dünən səslənən çox müdrik kəlamları bu tədbirə xüsusi əhəmiyyət verir. Lakin onu da qeyd etməliyəm ki, Rusiya nümayəndə heyəti 70-ə yaxın ölkədən olan nümayəndə heyətlərinin ən böyüyüdür. Əlbəttə, dünən Sammit masası arxasında bizim qardaşlarımızı, Şimali Qafqazın dini liderlərini görmək çox xoş idi. Bu insanlar öz respublikalarında, bütün Qafqazda və Azərbaycanda çox böyük nüfuz sahibləridir.

> *“Hesab edirəm ki, Qafqazda təhlükəsizliyin daha da möhkəmlənməsi və əməkdaşlığın inkişafı üçün Rusiya-Azərbaycan münasibətləri həlledici rol oynayır”*



**Ardı Səh. 3**

# "Şimali Qafqaz xalqları ilə Azərbaycan xalqını çoxəsrlik dostluq, əməkdaşlıq və qardaşlıq tarixi bağlayır"

*Prezident İlham Əliyev Rusiyanın Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib*



**Əvvəli-Səh-2**

Sizi yaxşı tanıyırlar, sizə hörmət edirlər və biz sizə fəaliyyətinizə görə təşəkkür edirik. Sizin sözləriniz xalqlarınızın nümayəndələrinin qəlbində əks-səda doğurur. Siz inkişafa, sabitliyə, sülhə və təhlükəsizliyə çağırırsınız. Azərbaycanda biz bunların hamısını çox yüksək qiymətləndiririk. Əlbəttə ki, bizim möhtərəm şeyximiz Allahşükür Paşazadə ilə sizin münasibətləriniz əməkdaşlığımızın çox mühüm amilidir. Dünən biz möhtərəm şeyxə təntənəli şəraitdə bir çox ölkələrin yüksək mükafatlarının, Azərbaycanın ən ali ordeni olan "Heydər Əliyev" ordeninin, digər dövlətlərin ordenlərinin təqdim edilməsinin şahidi olduq. Bu, şeyxin təkcə bizim regionda deyil, həm də dünyada nüfuz sahibi olmasını göstərir. Möhtərəm şeyx bizim böyük sərvətimizdir. O, dünya səviyyəli dini liderdir. Biz həmişə onunla ünsiyyətdə olarkən, o cümlədən dünən də sizin barənizdə, sizin münasibətləriniz barədə də danışdıq. Nə yaxşı ki, münasibətlərin belə formatı yaranıb. Əlbəttə, belə bir gündə mən çox mühüm bir missiyanı yerinə yetirmək istərdim. Bir neçə ay bundan əvvəl mənim Fərmanımla İsmayıl Əliyeviç Berdiyev Azərbaycanın yüksək ordeni - "Dostluq" ordeni ilə təltif edilib. Bu orden öz fəaliyyətləri ilə xalqlarımız arasında dostluğun möhkəmlənməsinə töhfə verən xarici ölkə nümayəndələrinə təqdim edilir. Odur ki, bu gün görüşümüzü məhz sizə bu yüksək mükafatı təqdim etməklə başlamaq istərdim.

***"Xalq Cəbhəsində Azərbaycan cəmiyyətinin ən tör-töküntü təbəqəsi toplaşmışdı. Hər bir cəmiyyətdə töküntülər var. Onlar da belə idi. Onlar hakimiyyəti qəsb etdilər. Mahiyyət etibarilə Azərbaycan xalqının çoxəsrlik ənənələrini məhv etdilər. Onlar düşmənçilik, nifrət toxumu səpir, dinlərarası ayrı-seçkiliyi qızışdırır, oğurluqla məşğul olur, tramvay xətlərini kəsirdilər, çünki orada mis vardı, kəsdiklərini qonşu ölkələrə satırdılar"***



Prezident İlham Əliyev "Dostluq" ordenini Şimali Qafqaz Müftilərinin Əlaqələndirmə Şurasının sədri, Rusiya Federasiyası Qaraçay-Çərkəz müftisi İsmayıl Berdiyevə təqdim etdi.

Müfti İsmayıl Berdiyev:

-Çox sağ olun, İlham Heydər oğlu. Biz burada özümüzü Vətənimizdəki kimi hiss edirik. Bu, Sizin sayənizdə, Şeyxülislamın sayəsində belədir. Bu mükafat şəxsən mənə deyil, bizim hamımıza aiddir. Biz hamımız bunu çox gözəl başa düşürük. Lakin biz də nə iş görürüksə, bu, Şeyxülislamın sayəsindədir. O, bizim ağsaqqalımız, müəllimimizdir.

*Ardı Səh. 4*

# “Şimali Qafqaz xalqları ilə Azərbaycan xalqını çoxəsrlik dostluq, əməkdaşlıq və qardaşlıq tarixi bağlayır”

## *Prezident İlham Əliyev Rusiyanın Şimali Qafqaz respublikalarından olan bir qrup müsəlman din xadimindən ibarət nümayəndə heyətini qəbul edib*

Əvvəli-Səh-3

Bizim də 65 yaşımız var, bu, az deyil, lakin o, bizi hələ də öyrədir. Bütün bunlar onun müdrikliyi sayəsindədir.

Sizin atanızın Azərbaycanda gördüyü işlərin bəhrələrini biz burada Sizin timsalınızda görürük. Çox sağ olun. Biz hər dəfə buraya gələndə Azərbaycanda necə dəyişikliklər baş verdiyini görürük. Burada hər yer gözəldir, xaricdə belə şey yoxdur. Bütün bunlar Sizin sayənizdə mümkün olub. Axı, mən Bakını sovet dövründə də, Elçibəyin zamanında da görmüşəm. İndi tamamilə başqadır. Siz nə edirsinizsə, Azərbaycan xalqı üçün edirsiniz. Çox sağ olun.

Prezident İlham Əliyev: Sağ olun.

Müfti İsmayıl Berdiyev: Mən heç vaxt unutmuram, mənə söyləyiblər ki, biz hamımız Kəbədə, Qara daşın qarşısında dayananda atanız Sizə demişdi: “Heyf ki, anan burada yoxdur”. O, bu sözləri nə üçün demişdi? İnsanın əhvalı yaxşı olanda istəyir ki, doğmaları onun yanında olsun. O, buna görə belə demişdi. İnşallah, o, Azərbaycan üçün etdiklərinə görə cənnətdə olacaq. Biz hamımız onunla fəxr edirdik. Sovet dövründə biz fəxr edirdik ki, Sov. İKP MK Siyasi Bürosunda bir müsəlman var. Siz onun yolunu davam etdirirsiniz. Bu işi davam etdirmək üçün Allah Sizə qüvvət və sağlamlıq versin.

Prezident İlham Əliyev: Xoş sözlərinizə görə çox sağ olun. Siz çox düzgün olaraq qeyd etdiniz ki, bugünkü Azərbaycan Heydər Əliyevin qəhrəmancasına fəaliyyətinin nəticəsidir. O, Azərbaycanın inkişafı üçün həmişə çox böyük şey göstərirdi. Sovet dövründə, 1969-cu ildə Azərbaycana rəhbərlik edəndə o, cavan idi, 46 yaşı vardı. O, Azərbaycanı inkişaf səviyyəsinə görə SSRİ-də ən axırıncı yerdən ən qabaqcıllar sırasına çıxardı. O vaxt Rusiya Federasiyasından başqa cəmi iki respublika - Azərbaycan və Belarus ümumittifaq xəzinəsinə aldıqlarından çox verirdi. Rusiya Federasiyası sırf şərti mənada müttəfiq respublika idi. O, dövləti və respublikanı yaradan qurum idi. Bütün digər respublikalar dotasiya alırdı. Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan bütün göstəricilər üzrə ən yüksək yerlərə çıxdı - həm sənayedə, həm kənd təsərrüfatında, həm elektronikada, həm infrastrukturda, həm də regionların inkişafında. Təsadüfi deyil ki, bizim xalqımız böyük çətinliklərlə, faciə ilə üzləşəndə insanlar, ilk növbədə, Heydər Əliyevə müraciət etdilər. Xalqımız 1993-cü ildə onu Azərbaycana rəhbərliyə dəvət etməklə, əslində, bizi fəlakətdən xilas etdi. Mən dünən də, bundan əvvəlki tədbirlərimizdə də demişəm ki, Heydər Əliyevin möhtərəm şeyx ilə dostluğu təkcə onların şəxsi münasibətləri deyildi. Onlar bir-birini çoxdan tanıyırdılar, hələ möhtərəm şeyx gənc yaşlarında Qafqaz Müsəlmanları İdarəsinə rəhbərlik etməyə başladığı vaxtdan. Biz də çox sıx dostluq münasibətləri saxlayırıq. Düşünürəm ki, bu, bizim uğurlu inkişafımızın rəhnidir.

Əlbəttə, biz hamımız tariximizin qaranlıq dövrünü xatırlayırıq. O vaxt təsadüfi adamlar hərbi çevriliş yolu ilə ölkə rəhbərliyinə gəlmişdi. Hərçənd bunu çevriliş də adlandırmaq çətindir. Ona görə ki, hətta çevriliş etmək üçün cəsarət və ağıl lazımdır. Bu, sadəcə, hakimiyyətsizlik dövrü idi. O vaxt hakimiyyət tam iflasa uğramışdı və hakimiyyətə küçə adamları gəlmişdi.

Müfti İsmayıl Berdiyev: Bu, hakimiyyətin qəsb edilməsi idi.

Prezident İlham Əliyev: Bəli, qəsb edilməsi idi. Xalq Cəbhəsində Azərbaycan cəmiyyətinin ən tör-töküntü təbəqəsi toplaşmışdı. Hər bir cəmiyyətdə töküntülər var. Onlar da belə idi. Onlar hakimiyyəti qəsb etdilər. Mahiyyət etibarilə Azərbaycan xalqının çoxəsrlik ənənələrini məhv etdilər. Onlar düşmənçilik, nifrət toxumu səpir, dinlərarası ayrı-seçkiliyi qızışdırır, oğurluqla məşğul olur, tramvay xətlərini kəsirdilər, çünki orada mis vardı, kəsdiklərini qonşu ölkələrə satırdılar. Təsəvvür edin ki, savadsız bir demaqoq müdafiə naziri olmuşdu. Xırda alverlə məşğul olması ilə tanınan bir adam baş nazir olmuşdu. İdarəçilik sahəsində heç bir təcrübəsi olmayan insan ölkəyə başçılıq edirdi. O, hətta kolxoza da rəhbərlik etməmişdi. Hələ onu demirəm ki, parlamentin rəhbəri 11 il kiçik elmi işçi olmuşdu və bu illər ərzində hətta namizədlik dissertasiyasını da müdafiə edə bilməmişdi. Onlar, sadəcə, savadsız adamlar idi. Dövlət katibi isə keçmiş komsomol fəalı, karyerist və qorxaq adam idi. Onun qorxaqlığını bütün Azərbaycan xalqı bu yaxınlarda bir daha gördü. Heç bir xarici dildə danışa bilməyən, hətta Azərbaycan dilində də pis danışan fizika müəllimi xarici işlər naziri olmuşdu. Belə işlər də olub, ümumiyyətlə, o, nə ingilis dilini bilirdi, nə də rus dilini. Ümumiyyətlə o, diplomatiyanın nə demək olduğunu anlamırdı. O vaxt vəziyyət belə idi. Bax, şeyx bunu yaxşı xatırlayır. Onlar faciəyə, torpaqlarımızın ermənilər tərəfindən işğal edilməsinə, vətəndaş müharibəsinə gətirib çıxardılar. Orada ərazilərimiz işğal olunur, onlar isə öz hakimiyyətini möhkəmlətmək üçün Gəncəni bombalamaq əmri verirdilər. Onların Gəncə aeroportunu, bir çox evləri bombalamasını, insanların həlak olmasını göstərən kadrlar var. Bu canilər vətəndaş müharibəsi təşkil etmişdilər. Burada onları asmaq üçün dar ağacı qurulanda onlar qorxuya düşərək o vaxt Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən Heydər Əliyevə müraciət etdilər ki, gəlib onları xilas etsin. Onlar xalqı deyil, özlərini düşünürdülər. Onlar Heydər Əliyevi uzun müddət dilə tutdular, üç dəfə onun üçün təyyarə göndərdilər. O vaxt Heydər Əliyevin yaşı az deyildi, 70 yaşı vardı. O, xalqı fəlakətdən xilas etmək üçün gəldi və bunu etdi. Biz belə yollar keçmişik. Ona görə biz bunların hamısını xatırlayırıq və qiymətləndiririk. Gərək gənc nəsil bunu bilsin. Çünki o vaxt onlar balaca idilər və ya heç doğulmamışdılar. Buna görə də möhtərəm şeyx də, biz də çalışırıq ki, bu həqiqət hamıya məlum olsun və bunu xatırlayanlar unutmasınlar. Çünki yaxşı olana çox tez vərdiş edirlər. Buna görə biz bütün bunları xatırlayırıq və öz müstəqilliyimizin, ləyaqətimizin, öz yolumuzun - inkişaf, əməkdaşlıq, tərəqqi yolunun qədrini bilirik.

Əlbəttə ki, bugünkü görüş, mənim fikrimcə, çox böyük əhəmiyyət kəsb edir. Biz hamımız Qafqazın birliyini, qardaşlığımıza, Rusiya ilə Azərbaycan arasında əməkdaşlığa sadiq olduğumuzu nümayiş etdiririk və İnşallah, beləcə irəli gedəcəyik.

Müfti İsmayıl Berdiyev: İnşallah. Sizin Rusiyada çox böyük nüfuzunuz var. Biz Prezidentimiz Vladimir Vladimiroviçin Sizə necə münasibət bəslədiyini görürük, o Sizə hörmətlə yanaşır. O, Sizin atanızı tanıyır. Onlar vaxtilə birlikdə işləyiblər. Belə adamlar heç nəyi gözdən qaçırmırlar, onlar hər şeyi bilirlər. Buna görə Sizin bu dostluğunuz bizim üçün çox dəyərlidir. İndi Rusiya artıq dünyada Sovet İttifaqına bənzər böyük dövlətə çevrilib. Onlar dağıtmaq, uçurmaq, tapdalamaq istəyirdilər. Lakin məhz Putin buna imkan vermədi. O, başa düşdü ki, biz birlikdəyik, bizim gücümüz bundadır.

Prezident İlham Əliyev: Siz tamamilə haqlısınız. Rusiya Prezidenti ilə məni yaxın, etimada əsaslanan münasibətlər bağlayır. Bu, çox vacibdir. Biz dəqiq başa düşürük ki, sıx qarşılıqlı fəaliyyətimiz, strateji tərəfdaşlığımız bizim üçün, xalqlarımız üçün vacibdir. Bundan əlavə, şəxsi münasibətlər də var. Məhz bu qarşılıqlı etimad səviyyəsi çoxillik, səmimi və həqiqi əməkdaşlıq sayəsində qazanılıb. Bu etimad səviyyəsi bizim hər hansı məsələləri müzakirə etməyimizə və onları həll etməyimizə imkan verir. Mən də Rusiya Prezidentinə böyük hörmət bəsləyirəm. Mən onunla hələ Heydər Əliyev Azərbaycan Prezidenti olduğu dövrdən tanışam. O vaxt Vladimir Vladimiroviç Azərbaycana səfər etmişdi. Ona qədər Sovet İttifaqı dağılandan sonra 10 il ərzində Rusiya Prezidenti Azərbaycana gəlməmişdi. Hərçənd, biz qonşularıq, bizi çox şey bağlayır. Vladimir Vladimiroviç isə Prezident olan kimi atamın dəvətini qəbul etdi, Azərbaycana gəldi və bizə hörmətini göstərdi. Əslində, o vaxt Heydər Əliyevlə o, bizim münasibətlərimizin təməlini qoydu, bu münasibətlər bu gün də davam edir. Ona görə mən bu yolla gedirəm və Rusiya Prezidenti ilə mənim çoxsaylı, məzmunlu görüşlərim bir-birimizə səmimi münasibətin təzahürüdür. Xalqlarımız bunu bilir və görür. Bu, böyük sərvətdir.

Sonda xatirə şəkli çəkdirildi.

# Prezident İlham Əliyev KAICIID Beynəlxalq Mərkəzinin Baş katibini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də KAICIID Beynəlxalq Dinlərarası və Mədəniyyətlərarası Dialoq Mərkəzinin Baş katibi Feysəl bin Muammarı qəbul edib. AZƏRTAC xəbər verir ki, görüşdə dünyanın bəzi regionlarında islamofobiya meyillərinin artması ilə əlaqədar narahatlıq ifadə olundu.***

Söhbət zamanı Ermənistanın Azərbaycanın işğal olunmuş ərazilərində Azərbaycan xalqına məxsus maddi-mədəniyyət və dini abidələri, o cümlədən məscidləri məhv etməsi vurğulandı, həmçinin Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsində Azərbaycanın haqlı mövqeyini dəstəklədiyinə və işğalçı Ermənistanla diplomatik əlaqə qurmadığına görə Səudiyyə Ərəbistanının mövqeyi yüksək qiymətləndirildi.

# “Azərbaycan çoxkonfessiyalı, multietnik ölkədir, Ermənistan isə monoetnik ölkədir”

## *Prezident İlham Əliyev Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavinini və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbərini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Simon Vizental Mərkəzinin həmtəsisçisi və sədr müavini, yəhudi din xadimi Rabbi Abraham Kuperi və ABŞ-ın Xristian Liderlər Konqresinin rəhbəri, yevangelist din xadimi Conni Muru qəbul edib. AZƏRTAC xəbər verir ki, Rabbi Abraham Kuper diqqətə çatdırıb ki, Sammitin özü heyrətamiz və uğurlu idi:***

“Ümid edirik ki, Azerbaycan lider ölkə olaraq sadəcə danışmaqla yox, çoxkonfessiyalılıq, liderlik nöqteyi-nəzərdən özünün təqdim olunmasında səylərini davam etdirəcək. Biz buraya gələndə özümüzü evimizdəki kimi hiss edirik. Biz bilirik ki, bu, əsasən Sizin şəxsən rəhbərliyiniz və mərhum atanızın birgə səyləri nəticəsində mümkün olmuşdur.”

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə də toxunuldu. Prezident İlham Əliyev Azərbaycan torpaqlarının 20 faizinin Ermənistan tərəfindən işğal edildiyini, soydaşlarımızın öz doğma torpaqlarından qovulduğunu bildirdi.

Prezident İlham Əliyev:

-Bütün azərbaycanlılar torpaqlarından qovulmuşdur və bundan sonra ermənilər qeyri-qanuni, saxta referendum təşkil etdilər və heç kim onun nəticələrini tanımır. O vaxtdan bəri onlar bir neçə dəfə saxta referendumlar təşkil etmiş, lakin Minsk qrupunun həmsədr ölkələri olan Amerika Birləşmiş Ştatlarının, Rusiyanın və Fransanın hökumətləri bunu açıq şəkildə pisləmişdir. Onlar bizim məscidlərimizi dağıtmış, lakin biz erməni kilsəsini bərpa etmişik. Beləliklə, bu, bizim və onların dini abidələrə münasibətimizin göstərəcisidir. Azərbaycan çoxkonfessiyalı, multietnik ölkədir, Ermənistan isə monoetnik ölkədir. Bütün digər etnik qrupların nümayəndələri qovulmuşdur. Eşitmişəm ki, Ermənistanda guya yəhudi icmasının rəhbəri var, lakin onun Karapetyan və ya Varapetyan kimi bir adı var. Orada yəhudilər yoxdur, azərbaycanlılar yoxdur.

Rabbi Abraham Kuper: Lakin orada antisemitizim var.

Prezident İlham Əliyev: Bəli, əlbəttə ki, antisemitizm var. Bilmirəm, sizin bu barədə məlumatınız var, ya yox. Bu ilin oktyabr ayında keçmiş Sovet İttifaqı respublikalarının rəhbərlərinin görüşdüyü Aşqabad şəhərində keçirilən MDB Sammiti çərçivəsində mövzulardan biri İkinci Dünya müharibəsində Qələbənin 75-ci ildönümünün qeyd olunması ilə bağlı idi və mən söz alaraq dedim ki, Azərbaycan və MDB-yə üzv olan digər ölkələr faşizmin pislənməsi ilə bağlı ortaq mövqedən çıxış edirlər. Nasistlərin qəhramanlaşdırılması haqqında danışarkən mən dedim, təəssüf ki, bizim bölgədə, MDB məkanında faşistləri tərənnüm edən bir ölkə var. Mən faşistlərə xidmət edən, Ermənistan hökuməti tərəfindən şərəfinə 6 metr hündürlüyündə abidə ucaldılmış Qaregin Ter-Arutunyanın adını çəkdim. O, faşist Almaniyası, müharibə vaxtında “Almaniya uğrunda həlak olan Ermənistan uğrunda həlak olur” ifadəsini işlədən bir şəxs idi və bu şəxsin müxtəlif millətlərin, o cümlədən yəhudilərin və digər insanların qətlində əli olub. O, Bolqarıstanda gizli şəbəkə yaratmışdı. Casusluq şəbəkəsi yaradılmışdı. O, həbs olunmuş, uzun müddətə azadlıqdan məhrum edilmiş və Vladimir şəhərində həbsxanada vəfat etmişdi. Mən Ermənistanın yeni hökumətini o abidəni sökməyə çağırdım, çünki onu əvvəlki hökumət ucaltmışdı. Yeni hökumət özünü demokratik hökumət kimi göstərir. Beləliklə, bunu göstərin, abidəni sökün. Mənim ittihamlarım ona qarşı deyildi, onun qondarma inqilab nəticəsində devirdiyi sələflərinə qarşı idi və o, dedi: Soljenitsin də həbsdə olub və bir çox başqa sovet dissidentləri Vladimir həbsxanasında olublar. Beləliklə, o, faktiki olaraq deyirdi ki, faşist qatil Soljenitsinlə eynidir. Bundan daha səfeh bəyanatı təsəvvürə gətirmək mümkün deyil. Bu səbəbdən, əlbəttə ki, biz hər şeyi olduğu kimi deməliyik. Biz bilirik ki, Amerikada, Rusiyada, Fransada, Minsk qrupunun həmsədr ölkələrinin hamısında erməni lobbisi var. Lakin bir həqiqət var. Qələbənin 75-ci ildönümü ərəfəsində biz Yerevanın mərkəzində bu abidənin olmasına necə dözə bilərik. İndi onlar, - mən mətbuatdan eşitmişən, - Bolqarıstanda abidə tikməyə çalışırlar. Onlar birini Rusiyanın Armavir şəhərində ucaldıblar. Çox cəsur bir insan gəlib onun üstünə qara boya töküb və indi erməni diasporu ona hücum edir. Onlar faşisti müdafiə edirlər. Ona görə də, əlbəttə ki, biz ümid edirik dünyadakı yəhudi icmaları bizim səsimizə səs verəcək və Ermənistan hökumətini bu abidəni sökməyə məcbur edəcəklər.

Rabbi Abraham Kuper: Xüsusilə, bildiyimiz kimi, yanvarın sonunda Ausşvitzdə onun ildönümü münasibətilə bəlkə də sonuncu toplantı keçiriləcək. Dəqiq desək, keçmiş Sovet İttifaqı ölkələrinin əksər rəhbərləri, onlara bunun baha başa gəlməsinə baxmayaraq, Hitler və silahdaşlarının məğlubiyyətində böyük rol oynamaqları ilə fəxr edirlər. Bu, həmçinin Ermənistanın da digər dövlətlərin sıralarına qoşulmasını təmin etmək üçün münasib vaxtdır. Əfsuslar olsun ki, Avropada tarix yenidən yazılır və nasistlərin silahdaşlarına, kütləvi qırğın törədənlərə abidələr ucaldılır.

Prezident İlham Əliyev: Tamamilə doğrudur. Qələbənin 75-ci ildönümü ərəfəsində biz, - mən siyasətçiləri, ictimai xadimləri, dini liderləri, QHT-ləri, medianı nəzərdə tuturam, - səylərimizi birləşdirməliyik. Biz bir mövqedən çıxış etməliyik. Çünki bu, böyük təhlükədir. Bu, təkcə tarixin təhrif olunması demək deyil. Bu, gələcək diskriminasiya üçün zəmin yaratmaqdır.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Şamaxı rayonunda baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Ağsu rayonunda baş vermiş təbii fəlakətin nəticələrinin aradan qaldırılması işlərinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Sultan Dadaşovun 3-cü dərəcəli “Əmək” ordeni ilə təltif edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd edilir ki, Azərbaycan Respublikasında dövlət qulluğunda uzunmüddətli səmərəli fəaliyyətinə görə Sultan Tofiq oğlu Dadaşov 3 cü dərəcəli “Əmək” ordeni ilə təltif edilsin.

* * *

Prezident İlham Əliyev “Azərbaycan Respublikasının Konsul Nizamnaməsinin təsdiq edilməsi haqqında”, “Notariat haqqında”, “Dövlət rüsumu haqqında” Azərbaycan Respublikasının qanunlarında və Azərbaycan Respublikasının Mülki Məcəlləsində dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 8 oktyabr tarixli 1672-VQD nömrəli Qanununun tətbiqi haqqında Sərəncam imzalayıb.

## Ali Erbaş: Terror təşkilatlarına yardım edənlərə Bakı Sammiti vasitəsilə mesaj göndərməyə çalışacağıq



Dinlər Yer üzünə birliyi, sülhü, xeyri bərqərar etmək üçün göndərilib. Bütün peyğəmbərlərin məqsədi pislikləri aradan qaldırmaq, yaxşılıqları təbliğ etmək olub. Bakıda Dünya dini liderlərinin II Sammitində iştirak dini liderlər müharibə, aclıq, terror kimi önəmli problemlərin həlli yollarını müzakirə edirlər. İki gün davam edəcək sammitin aktual məsələlərin həllinə töhfə verəcəyinə inanıram. Bu fikirləri sammitdə iştirak edən Türkiyə Dəyanət İşləri başqanı Ali Erbaş deyib.

“Bütün dünyaya, xüsusilə terror təşkilatlarına yardım edənlərə Bakı Sammiti vasitəsilə mesaj göndərməyə çalışacağıq. Bildirmək istəyirik ki, terrorun dini, inancı yoxdur və o, hər kəs üçün təhlükəlidir. Türkiyə terror təşkilatları ilə hələ də mübarizə aparır. Biz apardığımız mübarizəyə bütün ölkələrin, dini liderlərin dəstək verməsini arzulayırıq”, - deyə A.Erbaş qeyd edib.

Türkiyə Dəyanət İşləri başqanı Məhəmməd Peyğəmbərin mövlud həftəsi ilə əlaqədar noyabrın 16-da Bakıda tədbir təşkil edəcəklərini də diqqətə çatdırıb. Bildirib ki, həmin tədbirdə İslam Peyğəmbərinin nümunəvi həyat yolundan danışılacaq, onun insanlara qazandırdığı dəyərlərdən söhbət açılacaq.

# "Bakıda keçirilən Dünya dini liderlərinin ikinci Sammiti çox əhəmiyyətlidir"

*Prezident İlham Əliyev Qüds Sefardi ortodoks baş ravvinini qəbul edib*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 15-də Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarı qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı Bakıda keçirilən Dünya dini liderlərinin ikinci Sammitinin əhəmiyyəti qeyd edildi. Bu tədbirdə dünyanın bir sıra ölkələrindən böyük nümayəndə heyətlərinin, nüfuzlu ictimai və din xadimlərinin iştirakından məmnunluq ifadə olundu. Qüds Sefardi ortodoks baş ravvini Şlomo Amarın dinlərarası dialoq və Azərbaycanla bağlı fikirlərinin önəmi vurğulandı. Şlomo Amar Azərbaycana səfərindən və dünya dini liderlərinin sammitində iştirakından dərin məmnunluq hissi keçirdiyini bildirərək ölkəmizə və dövlətimizin başçısına xeyir-dualarını çatdırdı.

## Dünya dini liderlərinin II Bakı Sammitinin yekunlarına dair mətbuat konfransı keçirilib



Noyabrın 15-də Dünya dini liderlərinin II Bakı Sammitinin yekunlarına dair mətbuat konfransı keçirilib. AZƏRTAC xəbər verir ki, Baş Nazirin müavini, Sammitin Təşkilat Komitəsinin sədri Əli Əhmədov dini liderlərin bir araya gəlməsinin heç də asan olmadığını bildirib. "Lakin Azərbaycanda formalaşmış tolerantlıq mühiti ölkəmizi elə bir məkana çevirib ki, burada fərqli dinlərin nümayəndələrinin bir araya gəlməsi mümkün olub", - deyə o əlavə edib.

Əli Əhmədov bildirib ki, iki gün ərzində Sammitdə çox dəyərli fikirlər səsləndirildi. Prezident İlham Əliyevin tədbirdəki nitqi kifayət qədər diqqətçəkən məqamlarla yadda qaldı. Müasir cəmiyyətimizi düşündürən elə məsələlər var ki, bu məsələlər yalnız dialoq yolu ilə həll oluna bilər. Dini zəmində baş verən problemlərin həllində dini liderlərin üzərinə böyük vəzifələr düşür. Dini rəhbərlərin mənəvi nüfuzu bu baxımdan ən əsas resurslardan biridir. Müasir dünyada dini rəhbərlərin cəmiyyətdə birləşdirici rolunun artırılmasına ehtiyac var.

Sammitin böyük uğurla başa çatdığını vurğulayan Baş Nazirin müavini əmin olduğunu bildirib ki, tədbir ölkəmizdə dinlərarası anlaşmaya öz töhfəsini verəcək. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə deyib ki, bu Sammitin əhəmiyyəti zaman keçdikcə özünü daha çox göstərəcək. Bu tədbir Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın dəstəyi ilə keçirildi. "Buna görə də dövlətimizin başçısına və birinci xanıma bütün din xadimləri adından təşəkkür edirəm. Müasir dünyada bu kimi tədbirlərə böyük ehtiyac var", - deyə Allahşükür Paşazadə qeyd edib.

## Ravvin Eli Abadi: "Azərbaycan dünyada multikulturalizm və dinlərarası əməkdaşlıq diyarı kimi tanınır"



***Azərbaycanın dünyada multikulturalizm, tolerantlıq və dinlərarası əməkdaşlıq diyarı olduğunu nəzərə alsaq, burada Dünya dini liderlərinin II Sammitinin keçirilməsi heç də təsadüfi deyil. Müxtəlif ölkələrin din xadimlərinin, beynəlxalq təşkilatların nümayəndələrinin, dini konfessiya və təriqət liderlərinin bir araya gələrək sülh, qardaşlıq və insanlıq naminə birgə səylər göstərməsi sevindirici haldır.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Bakıda keçirilən Dünya dini liderlərinin II Sammitinin iştirakçısı, amerikalı ravvin Eli Abadi jurnalistlərə müsahibəsində deyib.

O, qeyd edib ki, dini radikalizm, fanatizm və ekstremizm kimi ideyaların geniş yayıldığı bir dövrdə belə sammitlər dinlər, xalqlar və ölkələr arasında əməkdaşlığın inkişaf etməsinə töhfə verəcək. Bu da öz növbəsində dünyada sülhün, əmin-amanlığın və sabitliyin təmin olunduğu bir gələcəyə aparan yoldur. Mən dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə töhfə vermək məqsədi daşıyan bu tədbirin iştirakçısı olmaqdan çox məmnunam.

"Multikulturalizm, tolerantlıq və dini dözümlülüyün dövlət siyasəti olduğu Azərbaycanın belə bir tədbirə ev sahibliyi etdiyinə, həmçinin müxtəlif dinlərin nümayəndələrinin sülh şəraitində yaşaması, dini tolerantlıq və dinlərarası əməkdaşlığın inkişafı istiqamətində göstərdiyi davamlı dəstəyə görə Prezident İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm", - deyə Eli Abadi diqqətə çatdırıb.

## Stanislav Zvolenski: Bakı Sammiti müxtəlif dinlər və təriqətlər arasında dialoqun və əməkdaşlığın inkişafına töhfə verəcək



Dünya dini liderlərinin II Bakı Sammiti çox yüksək səviyyədə təşkil olunub və inanıram ki, bu tədbir müxtəlif dinlər və təriqətlər arasında dialoqun və əməkdaşlığın inkişafına töhfə verəcək. Bu sözləri Bakıda Dünya dini liderlərinin II Sammitində iştirak edən Bratislava Arxiyepiskopu Stanislav Zvolenski jurnalistlərə müsahibəsində deyib. Stanislav Zvolenski bildirib ki, Azərbaycan dinlərarası dialoq sahəsində belə mötəbər tədbirlərin keçirilməsi baxımından nümunəvi ölkədir. Çünki burada müxtəlif xalqların, dinlərin nümayəndələri arasında multikultural və tolerant mühit mövcuddur. O, dünya dini liderlərinin II Sammiti kimi qlobal miqyaslı dinlərarası dialoq tədbirində iştirak etməkdən məmnun olduğunu qeyd edib.

# Dünya dini liderlərinin II Sammitinin Bakı Bəyannaməsi qəbul edilib




***Dünya dini liderlərinin II Sammitinin Bakı Bəyannaməsi qəbul edilib. AZƏRTAC xəbər verir ki, bəyannamədə Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığın inkişafına, dindövlət münasibətlərinin formalaşmasına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verdiyi vurğulanıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Dünya dini liderlərinin II Bakı Sammitinin və Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin anadan olmasının 70, şeyxülislamlıq fəaliyyətinin 40 illik yubiley tədbirlərinin keçirilməsi barədə qərarları, habelə II Bakı Sammitində iştirakı və dərin məzmunlu çıxışı yüksək dəyərləndirilib.***

Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin əhəmiyyəti, o cümlədən Dünya dini liderlərinin I Bakı Sammitinin, habelə, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələri qeyd edilib.

Dünya dini liderlərinin II Bakı Sammitinin yüksək səviyyədə təşkili, habelə müxtəlif mədəniyyətlərin və dinlərin daşıyıcılarının, dövlət, ictimaiyyət və elm xadimlərinin görüşləri və fikir mübadilələrinin aparılması üçün yaradılan şəraitə görə tədbirin Təşkilat Komitəsinə minnətdarlıq bildirilib.

Zati-müqəddəsləri Moskva və Bütün Rusiya Patriarxı Kirillin sivilizasiyalararası və dinlərarası əməkdaşlığa töhfələri, bölgədə və beynəlxalq miqyasda sülhün və əmin-amanlığın qorunmasında, eləcə də qarşılıqlı etimad mühitinin yaradılmasında önəmli rolu qeyd olunub.

Zati-müqəddəsləri Roma Papası Fransiskin 2016-cı il noyabrın 2-də Azərbaycana apostol səfəri zamanı Azərbaycanda sivilizasiyalararası və dinlərarası dialoqa verdiyi dəyər yüksək qiymətləndirilib. Habelə Papa Fransisk və Əl-Əzhərin baş imamı Şeyx Əhməd əl-Tayyib həzrətləri tərəfindən 2019-cu il fevralın 4-də Əbu-Dabidə imzalanmış "İnsani qardaşlıq, dünyada sülh və birgəyaşayış" Birgə Sənədi alqışlanıb.

Zati-müqəddəsləri bütün Gürcüstan katalikos-patriarxı II İlyanın Qafqaz regionunun ənənəvi tolerantlıq mühitinin qorunmasında, bölgədə sülhə və əmin-amanlığa nail olunmasında və dinlərarası anlaşmanın bu məqsədlər naminə dərinləşməsində müstəsna xidmətləri vurğulanıb.



Qafqaz və ona qonşu olan bölgələrin, Mərkəzi Asiya ölkələrinin dini liderlərinin dinlərarası və məzhəblərarası əməkdaşlığın inkişafına və mənəvi dəyərlərin qorunmasına verdikləri töhfələr qeyd edilib.

Dünyanın müxtəlif regionlarını təmsil edən xristian, müsəlman, yəhudi, buddist, induist və digər dini birliklərin rəhbərləri və dini konfessiya təmsilçilərinin müasir dünyanı təhdid edən problemlərə dair birgə mövqeyinin bildirilməsi, o cümlədən dinlərarası və sivilizasiyalararası həmrəyliyin vacibliyinin bütün dünyaya nümayiş etdirilməsi məqsədilə belə tədbirlərin davamlı əsaslarda təşkil olunmasının əhəmiyyəti vurğulanıb.

Dünya dini liderlərinin II Bakı Sammitində irəli sürülən, Azərbaycan tərəfinin 2020-ci ildə Bakıda "Media və sosial şəbəkələrdə nifrətə çağırışlara qarşı mübarizədə dini liderlərin və siyasi xadimlərin birgə fəaliyyəti" mövzusunda BMT, KAİCİİD və Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin həmtəşkilatçılığı ilə beynəlxalq konfransın keçirilməsi təşəbbüsü alqışlanıb.

Dünya dini liderlərinin sülh, əmin-amanlıq və humanizm ideyalarına xidmət edən dövlət və ictimaiyyət institutları, habelə beynəlxalq və regional təşkilatlarla əməkdaşlığının vacibliyi qeyd edilib.

2018-ci ilin 25 iyun tarixində BMT-nin Cenevrədəki Ofisində "Dinlər, inanclar və dəyər sistemləri: bərabər vətəndaşlıq hüquqları" mövzusunda keçirilmiş ümumdünya konfransında qəbul olunmuş və BMT Baş katibi tərəfindən təsdiq edilmiş Bəyannamə alqışlanıb.

Qarşılıqlı etimad və anlaşma mühitində mədəni müxtəlifliyin, sivilizasiyalararası və dinlərarası əməkdaşlığın təşviq edilməsinin sülhə, təhlükəsizliyə və bəşəri həmrəyliyə töhfə olduğu vurğulanıb və bu istiqamətdə səylərin artırılmasının vacibliyi qeyd edilib.

Dünyada terrorizmin, müxtəlif zəminlərdə ayrı-seçkiliyin, ksenofobiyanın, dini və etnik zəmində dözümsüzlüyün artması, terrorçu və ekstremist qruplaşmalar tərəfindən dini dəyərlərin məqsədyönlü təhrif olunması, mədəni, dini və tarixi irsin dağıdılması, eləcə də qaçqınların, məcburi köçkünlərin və miqrantların humanitar fəlakət həddinə çatmış kütləvi axını nəticəsində dünyada sülhün, qlobal dialoqun və bəşəri həmrəyliyin bərqərar olmaması ilə bağlı dərin narahatlıq ifadə edilib.

Silahlı münaqişələr, terror aktları, dini və etnik zəmində baş verən zorakılıqların insan tələfatı ilə yanaşı, mədəni və dini irsin talan və məhv edilməsi ilə nəticələndiyindən və bu xüsusda dünya mədəni və mənəvi irsinə aid olan, o cümlədən Azərbaycanın işğal olunmuş ərazilərində mədəni və dini abidələrin dağıdılmasından dərin narahatlıq ifadə olunub.

Özündə bəşəri dəyərləri ehtiva edən dinlərin dünya sivilizasiyasına, mədəniyyətinə və mənəvi irsinə əhəmiyyətli töhfə verdikləri, humanizmin təşviq edilməsinə, sülhün və ədalətin təmin olunmasına xidmət etdikləri xüsusi vurğulanıb.

Dayanıqlı tərəqqiyə, sabitliyə və təhlükəsizliyə əsas maneə olan silahlı münaqişələrin həllinə, eləcə də aqressiv təbliğatlara, etnik və dini zəmində yaranan münaqişələrin təhrik olunmasına qarşı mübarizə sahəsində beynəlxalq birlik tərəfindən səylərin gücləndirilməsinə olan zərurət bildirilib.

Bəyannamədə dövlətlər, Birləşmiş Millətlər Təşkilatı, digər beynəlxalq və regional və ictimai təşkilatlar, dini liderlər sivilizasiyalararası və dinlərarası qarşılıqlı anlaşmanın və əməkdaşlığın təşviq edilməsini və gücləndirilməsini davam etdirməyə, terrorizmin və insaniyyətə qarşı cinayətlərin din adı ilə bağlanması, ayrı-seçkiliyə, ksenofobiya, islamofobiya, antisemitizm, xristianofobiya zəminində törədilən terror aktları və digər xüsusilə ağır cinayətlərin qarşısının alınması üçün təsirli tədbirlər görməyə, din adından törədilən hər hansı terror aktını bütün dinlərə qarşı törədilmiş terror aktı kimi qiymətləndirməyə, terrorçuların öz məkrli niyyətləri naminə dinlərin müqəddəs dəyərlərindən istifadə etməsi cəhdlərinin qarşısının alınmasına çağırılır.

Həmçinin dini dəyərlər rəhbər tutulmaqla yanaşı, dini ayinlərin aidiyyəti dini məkanların yerləşdiyi ölkələrin dövlət siyasəti və milli qanunvericiliyinə tam riayət etməklə yerinə yetirilməsinin təmin olunmasına, media, rabitə və informasiya texnologiyaları vasitəsilə irqi, dini və etnik zəmində zorakılığa təhrik edən zərərli ideologiyaların və təbliğatların, nifrətə çağırışların qarşısının alınmasında əməkdaşlığın artırılmasına, gənclərin bu sahədə maarifləndirilməsinin təşviq edilməsinə, BMT-nin mərkəzi əlaqələndirici rolu vasitəsilə beynəlxalq sabitlik və təhlükəsizliyə qarşı yönəlmiş təhdid və təhlükələrin qarşısının alınması üçün birgə səylərin artırılmasına və qlobal dialoqun gücləndirilməsinə, silahlı münaqişə, təqib və zorakılıq nəticəsində əziyyət çəkmiş qaçqınlar, məcburi köçkünlər və miqrantların problemlərinin həllinə, onların pozulmuş hüquqlarının bərpa olunmasına, eləcə də bu cür vəziyyətlərin yaranmasına gətirib çıxaran amillərin aradan qaldırılmasına səy göstərilməsinə çağırış öz əksini tapıb.

Bundan başqa, bəyannamədə bütün dinlərin müqəddəs ibadətgahlarında, o cümlədən səmavi dinlərin müqəddəs məkanı olan Qüdsdə təxribatların və zorakılıq hallarının qarşısının alınmasında əməli səy göstərməyə, BMT-nin Nizamnaməsinə və beynəlxalq hüququn hamılıqla tanınmış prinsip və normalarına, xüsusilə dövlətlərin suveren bərabərliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsiplərinə hörmət edilməsinə və bu prinsiplərə riayət olunmasının beynəlxalq ictimaiyyət və yerli cəmiyyət daxilində təşviq edilməsinə, dünyanın bir çox bölgələrində, o cümlədən Yaxın Şərqdə davam edən münaqişələrin, eləcə də Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin yuxarıda göstərilən prinsiplərə tam uyğun olaraq sülh yolu ilə həll olunmasına töhfə verməyə, UNESKO-nun Nizamnaməsinə istinadən, dini, mədəni və etnik müxtəlifliyin qəbul olunması və buna hörmətlə yanaşılmasının təşviq edilməsinə, habelə dini və mədəni irsin qorunmasına, İnsan Hüquqları haqqında Ümumi Bəyannamə və BMT-nin Uşaq Hüquqları Konvensiyasına riayət etməyə, insan hüquqları, o cümlədən qadın və uşaq hüquqlarının təşviqi və müdafiəsi sahəsində din, elm və ictimaiyyət xadimlərinin birgə fəaliyyətini dəstəkləməyə çağırış yer alıb.

# Paytaxt Bakı Dünya Dini Liderlərinin II Sammitinə ev sahibliyi etdi

## Prezident İlham Əliyev: "Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir"

"Azərbaycanda uğurlu inkişafın, sabitliyin bərqərar olması istiqamətində atılmış bütün addımların arxasında dini və milli dözümlülük, tolerantlıq və multikultural dəyərlər dayanır". Bu fikirləri Bakıda keçirilən Dünya Dini Liderlərinin II Sammitinin açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev çıxış edərkən bildirib. Bakıda belə mötəbər tədbirin keçirilməsinin təbii olduğunu qeyd edən dövlət başçısı Azərbaycanın qədim dinlərarası ənənələri olduğunu, əsrlər boyu ölkəmizdə bütün dinlərin, bütün etnik qrupların nümayəndələrinin bir ailə kimi sülh, mehribanlıq, dostluq və qarşılıqlı anlaşma şəraitində yaşadığını bildirib: "Azərbaycan çoxkonfessiyalı, çoxmillətli bir ölkədir və bu, bizim böyük sərvətimizdir".




Azərbaycandakı multikulturalizm mühiti müxtəlif xalqların və etnik qrupların dilinin, dininin və ümumilikdə, mənəvi mədəniyyətinin inkişafına geniş imkanlar yaradır. Azərbaycanda dövlət-din münasibətləri tənzimlənib, dini sahədə sabitliyə nail olunub, konfessiyalar arasında dözümlülük mühiti dövlət səviyyəsində qorunub-saxlanılır. Tolerantlıq mühiti dövlət-din konsepsiyasına uyğun daha da möhkəmlənib, bu sahədə dövlət siyasətinin prioritet istiqamətlərindən birinə çevrilib. Müxtəlif tarixi dövrlərdə Azərbaycan ərazisində məskunlaşmış dini-etnik qruplar burada özlərini, nəinki yad hesab edib, hətta yerli əhali ilə qaynayıb-qarışıb və qohumluq əlaqələri qurublar. Fərqli dini konfessiyaların nümayəndələri hər zaman Azərbaycan xalqı ilə həmrəy olub, Azərbaycan "tolerant ölkədən tolerant dünyaya doğru" şüarının reallaşdırılmasını özünün hədəfi kimi müəyyənləşdirib.

### "Dinlərarası dialoqun Azərbaycanda qədim tarixi vardır və müasir Azərbaycan dövləti bu ənənələrə sadiqdir"

Azərbaycan Prezidenti İlham Əliyevin bu sahəyə xüsusi diqqət və qayğısının nəticəsi olaraq, bu gün dövlət və din münasibətləri özünün ən yüksək səviyyəsindədir. Azərbaycanda bütün dinlərin nümayəndələri öz dini ayinlərini azad şəkildə icra etməkdədirlər. Azərbaycanda bütün dinlərin nümayəndələri qarşılıqlı hörmət və anlaşma, sülh şəraitində birgə yaşayır və Milli Məclisdə təmsil olunurlar. Ölkədə mövcud ictimai sabitlik, vətəndaş həmrəyliyi və etnik dini dözümlülük mühiti mütərəqqi tarixi ənənələrdən bəhrələnən milli siyasətin məntiqi nəticəsidir. Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkəyə çevrilib. Bu gün ölkəmizdə 2250 məscid mövcuddur, 14 kilsə, 7 sinaqoq fəaliyyət göstərir. Bununla yanaşı, ölkə ərazisində 748 pir və ziyarətgah fəaliyyət göstərir. Cənab Prezident çıxışında qədim dövlət olan Qafqaz Albaniyasının kilsəsinin Şəkinin yaxınlığında yerləşdiyini və və bu kilsənin qədim tarixi olduğunu vurğulayıb: "Bu, Qafqazın ən qədim kilsələrindən biridir. Bakıda atəşpərəstlik məbədi - Atəşgah yerləşir. Bu da, onu göstərir ki, zərdüştlük dinini Azərbaycanda qədim kökləri vardır. Sonrakı dövrlərdə rus pravoslav kilsələri, sinaqoqlar və katolik kilsəsi inşa edilmişdir. Onu da bildirməliyəm ki, Azərbaycan dövləti tarixi-dini abidələrimizin qorunması və yeni dini məbədlərin inşası istiqamətində səylərini əsirgəmir. Azərbaycan dövlətinin maliyyə dəstəyi ilə bütün dinlərin məbədləri əsaslı şəkildə təmir edilmiş və ya yenidən tikilmişdir.

### "Azərbaycan multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir"

Prezident İlham Əliyev qlobal miqyasda ümumbəşəri dəyərlərin carçısı, dünya miqyasında multikulturalizm, islam həmrəyliyi ideyalarının fəal təbliğatçısı və mədəniyyətlərarası əməkdaşlığa dair "Bakı Prosesi"nin müəllifidir. Bu milli-dini birlik ideyası ölkəmizdə dövlət siyasəti səviyyəsində həyata keçirilir. "Azərbaycan multikulturalizm dəyərlərini təbliğ edən ölkələrdən biridir" deyən Cənab Prezident Azərbaycanda həm həyat tərzi, həm də dövlət siyasəti olduğunu diqqətə çatdırıb.

Paytaxtımızda keçirilən bu möhtəşəm Sammitin əsas məqsədi beynəlxalq sabitliyə və təhlükəsizliyə ciddi təhdid olan ksenofobiya, islamofobiya, xristianofobiya, antisemitizm kimi təhlükələrin qarşısının alınması üçün siyasi, ictimai və dini liderlərin birgə səylərinin artırılmasının və qlobal dialoqun gücləndirilməsinin vacibliyini bir daha bəyan etməkdir. Dövlət başçısı bu Zirvə görüşünün çox böyük əhəmiyyəti olacağını və Bakıdan səslənən mesajların lazımi ünvana çatacağını bildirib: "Hesab edirəm ki, əsas istiqamətlərdən biri dini ayrı-seçkiliyə yol verməmək, ksenofobiya, islamofobiya, antisemitizmə qarşı birgə mübarizə aparmaq, dindən siyasi məqsədlər üçün istifadə etməmək, münaqişələrə dini don geyindirməmək, münaqişə zamanı tarixi-dini abidələri dağıtmamaq və ənənəvi dəyərləri təbliğ etməkdir. Hesab edirəm ki, dediyim bu məsələlər Azərbaycanın bu istiqamətdəki siyasətini əks etdirir. Əminəm ki, Zirvə görüşünün nəticələri bu istiqamətdə atılmış növbəti addım olacaqdır".

### "Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır"

"Azərbaycan o ölkədir ki, öz inkişafını, öz gələcəyini milli köklər üzərində qurubdur" deyən Cənab Prezident ənənəvi dəyərlərin bizim üçün ən böyük sərvət olduğunu vurğulayıb: "Biz çox şadıq ki, Azərbaycanda yetişən gənc nəsil milli ruhda, vətənpərvərlik ruhunda və eyni zamanda, ənənəvi dəyərlər ruhunda tərbiyə alır. Hesab edirəm ki, Bakıda keçirilən Zirvə görüşünün mövzularından biri də, məhz bu, olacaq. Çünki biz görürük ki, dünyada, dünyanın müxtəlif yerlərində ənənəvi dəyərlərə qarşı kampaniya aparılır, onlar gözdən salınır, bizim üçün yad olan, bizim milli təfəkkürümüzə uyğun olmayan yeni "dəyərlər" aşılanır. Biz özümüzü və xüsusilə, gənc nəslimizi bu yad və bəd təsirdən qorumalıyıq. Ona görə hesab edirəm ki, ənənəvi dəyərlərin, ailə dəyərlərinin təbliğ edilməsi hamımızın işi olmalıdır. Yenə də deyirəm, Azərbaycanda bu istiqamətdə aparılan siyasət - həm dövlət, həm dini liderlər tərəfindən aparılan siyasət, hesab edirəm ki, çox böyük qiymətə layiqdir".

### "Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir"

Dövlət başçısı Dünya Dini Liderlərinin II Sammitində ölkəmizin əldə etdiyi uğurlardan da danışıb. İqtisadi göstəricilərimizin müsbət olduğunu bildirib. Qeyd edib ki, 2003-cü ildən bu günə qədər ölkə iqtisadiyyatı 3,2 dəfə artmış, savadlılıq 100 faizə yaxındır, yoxsulluq isə son 16 il ərzində, təxminən, 50 faizdən 5 faizə düşmüşdür. Dövlət başçısı Azərbaycanın uğurları sırasında ölkəmizin texnoloji inkişafa böyük önəm verdiyini və bu gün dünyanın məhdud sayda olan kosmik klubunun üzvü olduğunu vurğulayıb: "Önəmli nəqliyyat layihələri icra edilir. Bu layihələr, sadəcə olaraq, nəqliyyat layihələri deyil, bu, əməkdaşlıq layihələridir. Çünki nəqliyyat elə bir sahədir ki, qonşu ölkələr və digər bölgə ölkələri bir-birindən asılı olurlar. Azərbaycan açıq dənizlərə çıxışı olmayan bir ölkə kimi artıq beynəlxalq nəqliyyat mərkəzlərindən birinə çevrilmişdir - Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizləri Azərbaycanın ərazisindən keçir".

Bütün bu nailiyyətlər Azərbaycanın uğurlarından, işıqlı gələcəyindən xəbər verir. "İnkişafımız bundan sonra da uğurlu olacaq, gələcəyimiz parlaq olacaq və uğurlu gələcəyimizin əsas şərti daxili sabitlikdir" deyən Cənab Prezident sabitliyin də təminatçısının Azərbaycan xalqı, onun rəyidir, onun bizə verdiyi dəstək olduğunu diqqətə çatdırıb: "Xalq-iqtidar birliyi Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir və eyni zamanda, dinlərarası münasibətlər də bizim gücümüzü artırır".

### Dünya Dini Liderlərinin II Sammitinin Bakı Bəyannaməsi qəbul edilib

Qeyd edək ki, Dünya Dini Liderlərinin II Sammitinin Bakı Bəyannaməsi qəbul edilib. Bəyannamədə Azərbaycan dövlətinin beynəlxalq əməkdaşlığın inkişafına, din-dövlət münasibətlərinin formalaşmasına, sivilizasiyalararası və dinlərarası əlaqələrin möhkəmləndirilməsinə, müxtəlif milli-mədəni dəyərlərin və multikulturalizm ənənələrinin qorunmasına mühüm önəm verdiyi vurğulanıb. Azərbaycan Prezidentinin təşəbbüsü ilə başlanan və həyata keçirilən "Bakı Prosesi", "Multikulturalizm" və "İslam Həmrəyliyi" illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin əhəmiyyəti, o cümlədən, Dünya Dini Liderlərinin I Bakı Sammitinin, habelə, Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişlənməsinə, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələri qeyd edilib.

**Nəzakət ƏLƏDDİNQIZI**

# “Hazırda Azərbaycan Rusiya üçün çox dəyərli və vacib tərəfdaşdır”



“Əvvəla mən bu məsələyə bir neçə prizmadan baxmaq istərdim. Bu, Azərbaycan üçün çox vacib məsələlərdən biridir. Çünki Rusiya Azərbaycanın strateji tərəfdaşıdır. Hazırda Azərbaycan Rusiya üçün çox dəyərli və vacib tərəfdaşdır. Eyni zamanda, Rusiya da Azərbaycan üçün vacib tərəfdaşdır. Yəni Rusiya Azərbaycan üçün nə qədər vacibdirsə, Azərbaycan da məhz Rusiya üçün vacib tərəfdaşdır. Getdikcə Azərbaycanın Rusiya üçün tərəfdaşlıqda əhəmiyyəti daha da artır”. Bunu SİA-ya açıqlamasında “Resurs” Analitik İnformasiya Mərkəzinin rəhbəri, siyasi ekspert Rasim Quliyev deyib.

Siyasi ekspert bildirib ki, Lavrovun Ermənistana səfəri şəxsi xarakter daşımayıb: “Yəni bunu Lavrovun şəxsi fikri kimi qiymətləndirmək, düşünürəm ki, düzgün deyil. Lavrov Rusiya kimi böyük bir dövlətin xarici siyasətini həyata keçirən nazirliyin başçısıdır. Ona görə də o özünün şəxsi fikrini deyə bilməz. Hətta mən düşünürəm bəlkə də Lavrovun genetik emosiyası orada rol oynayıb və bu cür bəyanat verib. Lakin bu da ola bilməz, çünki o Rusiyanı təmsil edir. Sadəcə olaraq burada belə bir məsələ var, Lavrov Rusiyada deyib ki, Ermənistan öz ənənəvi xarici siyasətini yürüdəcək, yəni Rusiyaya münasibətdə Ermənistanın xarici siyasətində bir dəyişiklik olmayacaq. Azərbaycan üçün gərəksiz, Ermənistan üçünsə uyğun olan bir bəyanatla çıxış etmişdi. Bütün bunlar bizim illərdir eşitdiyimiz sözlərdən başqa bir şey deyil. Yadınızdadırsa Rusiya Prezidentindən əvvəl Rusiyanın baş naziri Dimitri Medvediyev Paşinyan baş nazir seçilərkən gedib 2 gün Ermənistanda qaldı. Daha sonra Putin MDB sammitində olarkən İran Prezidenti də orada oldu, həmçinin indi Paşinyanın dustaq etdiyi Köçəryanın arvadı ilə görüşdü, indi isə Lavrov Ermənistana 2 günlük səfərə gedib. Lakin bunu hökmən qeyd etmək vacibdir ki, Rusiyanın Ermənistanla bağlı heç narahatçılığı, problemi olmasaydı, bu narahatçılığı göstərən trayektoriya olmamalı idi. Yəni, bütün bunlar onu göstərir ki, Rusiyanın və İranın Ermənistan sarıdan narahatçılığı var. Biz öz mərkəzimiz tərəfindən Ermənistanda rəngli inqilablar seriyasından yazıb, təhlil etmişik. Soros Fondunun dünyada keçirdiyi rəngli inqilabların biri də Ermənistanda baş verib. Paşinyan Ermənistana rəngli inqilabların nəticəsi olaraq gəlib. Sadəcə olaraq hazırda Ermənistanda mövcud olan hakimiyyətdə istər Paşinyan olsun, istərsə də digər başqa biri Rusiyanın təklif etdiyi siyasətdən kənara çıxmaq ehtimalı çox azdır. Paşinyan kənara çıxmaq istədi, hətta Dağlıq Qarabağ məsələsində də müdaxilə etməyə çalışsa da sanki beton divara dəydi”.

# Erməni deputatlar Vaşinqtonda sual atəşinə tutulublar



Noyabrın 14-də Vaşinqtondakı Alman Marşal Fondunda keçirilən və ABŞ-da səfərdə olan Ermənistan parlamenti spikerinin müavini Vahe Enfiajyanın, Lilit Makuntsun (Paşinyanın “Mənim addımım” alyansının rəhbəri), Edmon Marukyanın və Tatevik Hayrapetyanın çıxış etdikləri “Ermənistanda məxməri inqilabın vədləri: demokratik islahatların irəli aparılması və ABŞ ilə strateji əməkdaşlığın gücləndirilməsi” adlı tədbir erməni parlamentarilər üçün uğursuzluqla nəticələnib. Ermənistanın yeni hökumətinin təbliğinə yönələn bu tədbirə bir neçə həftə hazırlıq görülsə də, iclasa cəmi 13-14 nəfər qatılıb. Bu, bir daha Ermənistanın “islahat” iddialarına ABŞ tərəfindən skeptik yanaşmanı nümayiş etdirir. Bununla yanaşı, Türkiyə Prezidentinin ABŞ-a səfəri erməni deputatlarının bu səfərini kölgədə qoyub.

AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən erməni deputatlar iddia olunan “demokratik islahatlar”ın mahiyyəti məsələsinə aydınlıq gətirməyib, iqtisadiyyatın gücləndirilməsi və Ermənistan əhalisinin rifahının yaxşılaşdırılması istiqamətində Paşinyan hakimiyyətinin hansı işlər gördüyü barədə suallara cavab verməyiblər. Erməni parlamentarilər “məxməri inqilab” adlandırdıqları prosesin xarici siyasətdə dəyişikliyə səbəb olmayacağı barədə tezisi təkrarlayıblar. Onlar ABŞ-la strateji dialoqa başladıqlarını qeyd etsələr də, bu dialoqun hansı məzmuna malik olduğu ilə bağlı sualın cavablandırılmasında çətinlik çəkiblər.

“Ermənistanın sülh səylərinə sadiq olduğu” və “Ermənistan və Azərbaycan ilə yanaşı, “Dağlıq Qarabağ əhalisi”nə sərf edən həll yolunun tapılmasına çağırış”a dair Paşinyan hakimiyyətinin mövqeyini təkrarlanması qarşılığında Azərbaycan diplomatı tərəfindən verilən sual erməni parlamentarilər arasında çaşqınlıq yaradıb. Belə ki, onlar Azərbaycanın işğal olunmuş ərazilərindən 750 mindən çox əhalinin qovulması, eləcə də məcburi köçkünlərin geri qayıtmaları və Azərbaycanın ərazi bütövlüyü çərçivəsində bölgənin gələcək statusunun müəyyənləşdirilməsi barədə münaqişənin həlli mexanizmi kontekstində “Dağlıq Qarabağ əhalisi” anlamının hansı mənanı ifadə etməsi, habelə bir qonşu ölkənin ərazisinin işğalının, digərinə (Türkiyə) qarşı isə ərazi iddialarının Ermənistanın “demokratik və islahatçı” siyasətinə nə dərəcədə uyğun gəlməsi ilə bağlı suallarına cavab verə bilməyiblər.

Bununla yanaşı, tədbirdə Ermənistanın ABŞ-ın maliyyə dəstəyi ilə tikdiyi bioloji laboratoriyalara Rusiyanın girişinə icazə verməsinin ABŞ tərəfinə necə izah olunduğu və Ermənistanda Rusiya bazasının saxlanmasının hansı məqsədlərə xidmət etdiyi ilə bağlı Azərbaycan əsilli jurnalist Rafiq Qurbanzadə tərəfindən verilən suallar erməni deputatların narahatlığına səbəb olub. Bundan əlavə, erməni parlamentarilər digər iştirakçıların Ermənistanda məhkəmə islahatlarının müddəti, Suriyaya missiya göndərməsinin səbəbləri, ABŞ ilə əməkdaşlığın məzmununun nədən ibarət olduğu barədə suallarına olduqca səthi cavablar verməklə kifayətləniblər. Beləliklə, erməni parlamentarilərin çıxışları Ermənistanda iddia edilən “islahatlar”la bağlı məlumat kasadlığı ilə yanaşı, ünvanlanan suallara əsassız və səthi cavab vermələri ilə yadda qalıb.

# Vüqar Rəhimzadə: “Azərbaycan nadir qlobal dialoq və əməkdaşlıq məkanına çevrilib”



Azərbaycan multikulturalizmi dövlət siyasəti kimi qəbul edən nadir dövlətlərdəndir. Ölkəmizdə etnik-mədəni müxtəlifliklər multikulturalizm siyasəti vasitəsilə uğurla, səmərəli şəkildə tənzimlənir. Məhz bunun nəticəsidir ki, ölkəmizdə etnik-dini zəmində heç bir qarşıdurma yoxdur və Azərbaycan nadir qlobal dialoq və əməkdaşlıq məkanına çevrilib. Bakıda keçirilən Dünya dini liderlərinin II Sammiti də deyilənləri təsdiqləyir.

Bu sözləri AZƏRTAC-a Yeni Azərbaycan Partiyası (YAP) Siyasi Şurasının üzvü, “İki sahil” qəzetinin baş redaktoru Vüqar Rəhimzadə deyib. Bu il aprelin 11-də Prezident İlham Əliyevin Dünya dini liderlərinin II Bakı Sammitinin keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında Sərəncam imzaladığını xatırladan Vüqar Rəhimzadə deyib: “Azərbaycan dövlətinin qlobal müstəvidə dinlərarası dialoqun inkişafına, qarşılıqlı anlaşma və insani həmrəylik kimi bəşəri dəyərlərin təşviqi və təkamülünə öz töhfəsini vermək məramı ilə ev sahibliyi etdiyi Dünya dini liderlərinin II Bakı Sammiti Prezident İlham Əliyevin təşəbbüsü ilə başlanan və həyata keçirilən “Bakı Prosesi”, “Multikulturalizm” və “İslam Həmrəyliyi” illəri çərçivəsində təşkil olunmuş beynəlxalq tədbirlərin, o cümlədən Dünya dini liderlərinin I Bakı Sammitinin, habelə Bakı Beynəlxalq Dinlərarası və Sivilizasiyalararası Əməkdaşlıq Mərkəzinin müxtəlif mədəniyyətlər və dinlər arasında əlaqələrin genişləndirilməsi, qarşılıqlı etimad mühitinin yaradılması işinə töhfələrinin məntiqi davamıdır”.

Baş redaktor bildirib ki, Azərbaycan dünyanın əsas multikulturalizm mərkəzlərindən biri hesab olunur. Bu mənada ölkəmiz bu mötəbər tədbirə ikinci dəfə ev sahibliyi edir. Bu isə bir daha onu göstərir ki, Azərbaycan dinlərarası dialoqun inkişafında öz önəmli rolunu oynayır. Multikulturalizmin dövlət siyasəti olmasının mühüm təzahürlərindən biri ölkəmizdə dövlət-din münasibətlərinin yüksək səviyyəsidir. Azərbaycanda dövlət-din münasibətlərinin yüksək səviyyədə olması özünü ölkəmizdə dini azadlıqların təmin edilməsində, bütün dinlərin, dini məzhəblərin qanun qarşısında bərabər olmasında, onların fəaliyyətlərinə dövlət tərəfindən hər cür dəstək göstərilməsində və dinlərarası münasibətlərin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasında göstərir. Təsadüfi deyil ki, Əsas Qanunumuzun 18-ci maddəsinin 1-ci bəndində göstərilir ki, ölkəmizdə “bütün dini etiqadlar qanun qarşısında bərabərdir”. “Dini etiqad azadlığı haqqında” Azərbaycan Respublikası Qanununun 5-ci maddəsində isə deyilir ki, “bütün dinlər və dini qurumlar qanun qarşısında bərabərdir. Heç bir din və dini qurum barəsində digərlərinə nisbətən hər hansı üstünlük və ya məhdudiyyət müəyyən edilə bilməz”.

“Dövlət bütün dini qurumların hər birinə lazımi kömək, o cümlədən maliyyə dəstəyi göstərir. Dövlətimizin bütün dinlərə göstərdiyi bərabər münasibət öz növbəsində dinlərarası münasibətlərin təkmilləşməsinə, daha dəqiq desək, bu əlaqələrin qarşılıqlı hörmət və əməkdaşlıq əsasında qurulmasına səbəb olur”, - deyən Vüqar Rəhimzadə əlavə edib ki, multikulturalizmin, tolerantlığın Azərbaycanın daxili siyasətinə təsiri özünü cəmiyyətdəki etnik, irqi, dini və mədəni müxtəlifliklərin, onların əsasını təşkil edən etnik-mədəni dəyərlərin qorunmasında büruzə verir. Eyni zamanda, onun ölkəmizin xarici siyasətinə təsiri özünü etnik-mədəni mənsubiyyətlərindən asılı olmayaraq, bütün ölkələrlə ölkəmizin hərtərəfli əlaqələrinin inkişafında göstərir. Bu isə öz növbəsində dünya miqyasında mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun inkişafı üçün münbit zəmin yaradır.

# DSX: Sərhədboyu ərazilərdə gizlədilmiş odlu silahlar aşkarlanaraq götürülüb



Dövlət Sərhəd Xidmətinin (DSX) sərhədlərimizin etibarlı mühafizəsi və dövlət sərhədində rejim qaydalarına riayət olunması istiqamətində həyata keçirdiyi əməliyyat-axtarış və qoşun tədbirləri nəticəsində sərhədboyu ərazilərdə gizlədilmiş odlu silahlar aşkarlanıb.

DSX-nin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, noyabrın 12-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının “Şəmkir” sərhəd dəstəsinin xidməti ərazisində Ağstafa rayonunun Sadıxlı kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində yerləşən “Qarayazı” Dövlət Meşə Qoruğunda kolların arasında gizlədilmiş 20 millimetrlik ov tüfəngi, ona məxsus 9 patron aşkarlanıb. “Şəki” sərhəd dəstəsinin xidməti ərazisində Oğuz rayonunun Filfilli kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti sahəsində Qalaçay çayının sahilində qaya daşlarının altında gizlədilmiş istifadəyə yararlı 1960-cı il istehsalı olan “TOZ-8” markalı yivli silah aşkar edilərək götürülüb. Faktlar üzrə zəruri əməliyyat-istintaq tədbirləri davam etdirilir.



# 2020-ci ilin dövlət büdcəsinin 39.5 faizi bilavasitə sosial məqsədlərə yönələcək



## Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəblinin yap.org.az-a müsahibəsi

***- Hadi müəllim, hazırda 2020-ci ilin büdcə zərfinə daxil olan məsələlər gündəmin əsas mövzularından biridir. Artıq Milli Məclisdə büdcə zərfinə daxil olan qanun layihələri geniş müzakirələrdən sonra birinci oxunuşda qəbul olunub. Sizcə, gələn ilin dövlət büdcəsinin əsas üstünlükləri nədən ibarətdir?***

- Bilirsiniz ki, Azərbaycan milli maraqlar üzərində qurulan, praqmatik yanaşmalara, cəmiyyətdən gələn sosial sifarişlərə əsaslanan, eyni zamanda daim qarşıya yeni hədəflər qoymaqla reallaşdırılan məqsədyönlü siyasət sayəsində bütün parametrlər baxımından yüksək inkişafa nail olub. Respublikamızda Prezident İlham Əliyevin rəhbərliyi ilə aparılan siyasəti bilavasitə islahatlar kursu kimi səciyyələndirmək mümkündür. Ölkənin zəngin potensialı və qlobal miqyasda meydana çıxan çağırışlar, yeni inkişaf trendləri nəzərə alınmaqla hazırlanan islahatlar, deyə bilərik ki, həyatın bütün sahələrini əhatə etmişdir və beləliklə də, respublikamızın nümunəvi inkişaf modeli formalaşmışdır. Təsadüfi deyil ki, Azərbaycanın rəqabətqabiliyyətli iqtisadiyyat quruculuğu, dövlət xidmətlərinin əlçatanlığının təmin edilməsi, biznes mühitinin optimallaşdırılması, infrastruktur təminatının yaxşılaşdırılması, bilavasitə ölkə vətəndaşlarının həyat səviyyəsinin yüksəldilməsi, şəffaflığın artırılması və digər istiqamətlərdə qazandığı uğurlar beynəlxalq səviyyədə nüfuzlu reytinq agentliklərinin, o cümlədən Dünya Bankının, Ümumdünya İqtisadi Forumunun bir qədər bundan əvvəl yayılan son hesabatlarında yüksək dəyərləndirilib.

Bütövlükdə, 2019-cu ilin ötən dövrü Azərbaycan dövlətçiliyi tarixində çox ciddi məqamlarla yadda qalmışdır. Keçirilən bir sıra hökumətlərarası və beynəlxalq tədbirlərdə möhtərəm Prezidentimiz İlham Əliyev dünya şöhrətli lider kimi qəbul olunmuş və Bakı şəhəri bundan sonra da bir neçə il bu tipli görüşlərə ev sahibliyi edəcəkdir.

Azərbaycan əhalisi və hər birimiz üçün önəmli hadisələrdən biri də Prezidentimizin dəfələrlə səsləndirdiyi kimi 2019-cu il ölkəmizdə sosial müdafiənin gücləndirilməsi ili kimi yadda qaldı. Belə ki, iki paket Fərman və sərəncamlarda Azərbaycan əhalisinin 4,2 milyon nəfəri, təxminən 3 milyard manat civarında sosial müdafiə ilə əhatə olundu, vətəndaşlarımızın böyük bir qrupunun ödənişləri 40%-dən 2 dəfəyə qədər yüksəldi.

Büdcə məsələlərinə gəlincə, deyə bilərəm ki, 2020-ci ilin dövlət büdcəsinin gəlirləri 24 milyard 134 milyon manat, xərcləri 26 milyard 913 milyon manat, icmal büdcənin gəlirləri isə 27 milyard 533 milyon manat təşkil edəcək. İcmal büdcə xərclərinin yuxarı həddi 29 milyard 488 milyon manat olacaq ki, bu da 2019-cu illə müqayisədə 2 milyard 117 milyon manat və ya 7,7 faiz çoxdur. Dövlət büdcəsinin gəlirlərinin tərkibində neft gəlirləri 56,1 faiz və ya 13,5 milyard manat, qeyri-neft gəlirləri 43,9 faiz və ya 10,6 milyard manat nəzərdə tutulur.

Növbəti ildə Dövlət Neft Fondundan dövlət büdcəsinə 11 milyard 350 milyon manat və ya cari illə müqayisədə 14,3 milyon manat az transfer nəzərdə tutulur.

2020-ci il dövlət büdcəsində elm, təhsil, səhiyyə, sosial müdafiə və sosial təminat, mədəniyyət, incəsənət, informasiya, bədən tərbiyəsi, gənclər siyasəti və bu qəbildən olan digər fəaliyyət xərcləri üçün 8402,3 milyon manat vəsait nəzərdə tutulub.

***- Büdcənin sosialyönümlü olması ilə bağlı nə deyə bilərsiniz?***

- 2020-ci ilin ilkin büdcə müzakirələri bir daha onu göstərdi ki, təkcə 2019-cu il yox, qarşıdan gələn bütün illər rəqəmlərin dili ilə desək, zaman-zaman sosial siyasətin yaxşılaşdırılması və müdafiənin daha da gücləndirilməsi illəri olacaqdır. Təkcə onu demək kifayətdir ki, Azərbaycanın müstəqilliyi tarixində ilk dəfə olaraq gələn ilki büdcəmiz təxminən 27 milyard manat təşkil edəcək. Bu maliyyə toplumunun böyük bir hissəsi, yəni 39.5 faizi bilavasitə sosial məqsədlərə yönələcəkdir.

Ənənəvi olaraq, büdcənin sosialyönümlülüyü təmin ediləcək. Bu əsasda, əməyin ödənişi, təqaüdlər və sosial müavinətlər, o cümlədən əhalinin aztəminatlı təbəqələrinin sosial müdafiəsinin möhkəmləndirilməsi üzrə maliyyə təminatının yaradılması prioritet xərc istiqamətlərindən olacaq. Ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi, xüsusi müdafiə xarakterli layihələr və tədbirlər üçün maliyyə təminatının yaradılması 2020-ci ildə də davam etdiriləcək.

Mən fürsətdən istifadə edib, gələn il üçün sosial müdafiənin güclənməsinə yönəlmiş bəzi rəqəmləri bir daha yada salmaq istəyirəm. Təkcə əhalinin məşğulluq imkanlarının artırılması sahəsində aparılacaq tədbirlərə gələn il bu ilə nisbətdə 44 faiz çox vəsait ayrılır. Ünvanlı dövlət sosial yardımları üçün 2019-cu ilə nəzərdə tutulmuş vəsaitlərin həcmi gələn il 30 faiz artırılacaq və bu hesaba əlavə 13 min ailənin müavinət almaq imkanları artacaqdır. Belə ailələrin sayı 90 mini ötəcəkdir.

***- Hadi müəllim, sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci üçün büdcəsində hansı məsələlər öz əksini tapır?***

- Sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının 2020-ci ilə olan büdcəsi də geniş müzakirə mövzusudur. Gələn il üçün bu büdcədə 4 milyard 825 milyon 508 min 800 manat vəsait nəzərdə tutulmuşdur ki, bu da əvvəlki illə müqayisədə 697,41 milyon manat və ya 17 faiz çoxdur.

Təkcə onu demək kifayətdir ki, bu büdcənin tərkibində transfertin həcmi 2012-ci ildə mövcud olan 42 faizdən gələn il üçün 29 faizə enərək 1 milyard 427 milyon manat təşkil edəcəkdir. Onu da qeyd edim ki, bu büdcənin artan böyük məbləği məhz DSMF-nin öz imkanları hesabına toplanacaqdır.

Sevindirici hal bir də odur ki, Prezidentimizin apardığı struktur islahatlarının səmərəsi nəticəsində qeyri-leqal məşğulluğun bu il təxminən 160 min nəfərinin sığortaya cəlb olunması bu büdcənin artımında özünü kəskin surətdə göstərə bildi. Ehtimallar var ki, bu artımlar gələn ildə çoxalacaq və DSMF əlavə vəsaitlərin toplanmasında mühüm rol oynayacaqdır. Rəqəmlər bir daha onu deməyə imkan verir ki, gələn il pensiyaların və əmək haqqlarının artım tempi davamlı surətdə çoxalacaqdır.

Bir önəmli məqamı da xüsusi vurğulamaq istəyirəm. DSMF-nin xərclər qrafasında bu il üçün nəzərdə tutulmuş vəsaitlərin səmərəli istifadə edilməsi də təqdirə layiqdir.

Sənəddəki rəqəmlərdə, öz əksini bariz surətdə tapmasa da, əhaliyə göstərilən yüksək xidmət, yaradılan şəffaflıq, operativlik, müraciət edənlərin məmnunluğu bu qurumun həm də DOST mərkəzləri vasitəsilə gördüyü təqdirəlayiq işlərdəndir. Pensiyaların elektron qaydada ödənilməsi texnologiyası və bununla yanaşı artıq müavinətlərin 14 növünün bu qaydada paylaşılması məmur-vətəndaş təmasının sıfıra yaxınlaşmasına imkan yaradır.

Bir məsələni də xüsusilə vurğulamaq istəyirəm, son bir il ərzində bu qurum əhaliyə informasiya çatdırılması, sual-cavab təminatına geniş miqyasda şərait yaratmış, hər bir vətəndaşa çatmaq üçün təbliğat mexanizmlərindən təqdirə layiq istifadə edə bilmişdir. Belə ki, bu məqsədlər üçün saytlar, internet səhifələri yaradılmış və əhalini düşündürən suallara bu yolla operativ, təcili və dəqiq cavab tapıla bilinir. Açığını deyim ki, bu qəbildən parlamentə daxil olan şikayət və ərizələrin də sayı son vaxtlar xeyli azalmışdır.

Parlamentdə aparılan geniş müzakirələrdə bütün müsbət məqamlar və möhtərəm Prezidentimizin bu sahədəki qarşıya qoyduğu vəzifələrin nazirlik tərəfindən uğurla həyata keçirildiyi xüsusi vurğulandı. Bununla yanaşı bir sıra problem və uyğunsuzluqlara da diqqət cəlb edildi. Belə ki, əlilliyin müəyyələşdirilməsiylə bağlı nazirliyin yaratdığı elektron sistem son vaxtlar bəzi boşluqlarıyla və narahat görüntüləriylə sual doğurur. Müzakirələr zamanı çıxışlarda səsləndi ki, səhiyyə orqanları tərəfindən sənədlərin verilməsində pərakəndəliyin və sistemsizliyin mövcudluğu da buna səbəb olur.

Düşündürən bir statistikanı da diqqətə çatdırmaq istərdim. 2017, 2018, 2019, 2020-ci illərdə Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına idman cəmiyyətləri üçün nəzərdə tutulmuş vəsaitlərinin hətta əmək haqqı göstəriciləri belə demək olar ki, tamamilə dəyişməmişdir. Nəzərə alsaq ki, bu illərdə ölkəmizin idman uğurları xeyli artıb və minimum əmək haqqı bütün sistemlərdə çoxalıb, bu göstəricinin artırılmasına böyük ehtiyac var. Onu da deyim ki, bunun üçün çox kiçik bir məbləğ vəsait tələb olunur.

Bu məsələlərlə bağlı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev ətraflı və hərtərəfli cavablar verdi, nöqsanların səbəblərini açıqladı, görüləcək gələcək islahatlardan danışdı.

Bütövlükdə isə hesab edirəm ki, gələn ilin büdcə zərfində sosial məsələlər mühüm yer tutur.

## Son 10 ayda Azərbaycanla Ukraynanın ticarət dövriyyəsi 712 milyon dolları ötüb

Cari ilin 10 ayında Azərbaycan və Ukrayna arasında idxal-ixrac əməliyyatlarının həcmi 712 milyon dolları ötüb ki, bu da ötən ilin müvafiq dövrü ilə müqayisədə 96 milyon dollar çoxdur. Ukrayna Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, yanvar-oktyabr aylarında Azərbaycandan bu ölkəyə 385 milyon dollarlıq məhsul ixrac olunub. Hesabat dövründə Azərbaycanın Ukraynadan idxal etdiyi məhsulun dəyəri isə 327 milyon dollar təşkil edib.

Qeyd edək ki, postsovet məkanında Ukrayna Azərbaycanla ticarət dövriyyəsinin həcminə görə Rusiyadan sonra ikincidir. Keçən il Azərbaycan və Ukrayna arasında idxal-ixrac əməliyyatlarının həcmi 829 milyon dollara çatıb ki, bu da əvvəlki illə müqayisədə 18 milyon dollar çoxdur. Ötən il iki ölkə arasındakı ticarət dövriyyəsində son 5 ilin ən yüksək göstəricisi qeydə alınıb.

## On ayda ölkədə neçə milyard manatlıq ÜDM istehsal edilib?



Bu ilin yanvar-oktyabr aylarında ölkədə 65 milyard 415,1 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 2,1 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Dövlət Statistika Komitəsindən AZƏRTAC-a bildirilib ki, iqtisadiyyatın qeyri-neft-qaz sektorunda istehsal olunmuş əlavə dəyər 3,5 faiz, neft-qaz sektorunda isə 0,2 faiz artıb. Bu dövrdə tikinti sektoru istisna olmaqla, iqtisadiyyatın bütün sahələrində istehsalın artımı müşahidə edilib. İnformasiya və rabitə sahələrində əlavə dəyər 16,1 faiz, kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində 7,3 faiz, turistlərin yerləşdirilməsi və ictimai iaşə sahələrində 5,5 faiz, ticarət - nəqliyyat vasitələrinin təmiri sahələrində 3,1 faiz, sənayedə 1,7 faiz, nəqliyyat və anbar təsərrüfatı sahələrində 0,5 faiz, digər xidmət sahələrində 3 faiz artıb, tikintidə isə 6,2 faiz azalıb. Əhalinin hər nəfərinə düşən ÜDM 6609,6 manata bərabər olub.

# 17 Noyabr Azərbaycanda Milli Dirçəliş Günüdür

*Tarixən keşməkeşli yol keçən, əsrlərin sınaqlarından çıxan Azərbaycan müstəqil dövlətə sahib olmaq naminə əzmkarlıqla mübarizə aparıb və azadlıq uğrunda mücadilə edib. Azərbaycan xalqı mübarizələrlə dolu tarixi yol keçərək azadlıq, müstəqillik və dirçəliş yoluna qovuşa bilib. Bu gün xalqın istiqlal mücadiləsinin əsas mərhələlərindən biri olan 17 Noyabr Milli Dirçəliş Günüdür. Bu gün qeyd etdiyimiz Milli Dirçəliş Günü də, məhz xalqın istəklərini reallaşdırmaq məqsədindən güc alıb. Sovet rəhbərliyinin Qarabağ məsələsi ətrafında apardığı anti-Azərbaycan siyasəti nəticəsində, XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda antisovet xalq hərəkatı təşəkkül tapdı və 17 noyabr 1988-ci ildə Bakının əsas meydanı sayılan "Azadlıq" meydanında Azərbaycan xalqının uzunmüddətli mitinqləri başladı.*




Qeyd edək ki, Ermənistanda və Qarabağın dağlıq hissəsində Azərbaycan xalqına qarşı yönəldilmiş soyqırımı Sovet ordusu tərəfindən dəstəklənirdi. O zamankı SSRİ rəhbərliyi ermənilərlə əlbir olub Dağlıq Qarabağı işğal edərək, Ermənistanın nəzarətinə verməsi istiqamətində atdığı addımlar xalqın səbir kasasını daşırmışdı. Xalqımız imperiya buxovlarından və əsarət zəncirindən azad olmaq istəyirdi. Azərbaycanda meydan hərəkatı geniş vüsət aldı. Bu milli hərəkat xalqın dirçəlişi idi. Respublikamızın bütün şəhər və rayonlarını bürümüş qüdrətli xalq hərəkatı kommunist rejimini Azərbaycandan süpürüb atmaq təhlükəsi yaratmışdı. Bundan qorxuya düşən imperiya başçıları noyabrın 24-dən 25-nə keçən gecə Bakıya qoşun yeritdilər. Lakin Azərbaycan xalqı geri çəkilmədi. Sovet rejimindən Ermənistanda və Dağlıq Qarabağın dağlıq hissəsində erməni separatçılığına və terrorizminə son qoymaq, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək, sərvətlərimizin talan edilməsini dayandırmaq kimi tələblərlə başlamış "meydan hərəkatı" tezliklə Azərbaycanı müstəqilliyə çağıran şüarlara keçdi. Azərbaycanda bu hadisələr milli-azadlıq hərəkatı kimi qiymətləndirilir və respublikamızın istiqlaliyyət qazanmasında əsas amil sayılır. Dekabrın 4-dək 18 gün aramsız davam edən aksiyalara 1 milyonadək insan toplaşmışdı. Bu, keçmiş Sovet İttifaqında ən genişmiqyaslı kütləvi çıxışlar idi. 1988-ci ilin 17 noyabrında başlanan kütləvi çıxışlar Azərbaycanın tarixinə milli dirçəliş aksiyaları kimi düşdü. Öz haqqı, azadlığı və torpaqlarına sahib çıxmaq istəyən xalqımız bu müqəddəs ideallar naminə birlik və bərabərliyini bir daha bütün dünyaya nümayiş etdirdi.

1991-ci ilin martında Azərbaycan SSR Ali Sovetinin iclasında çıxış edən Ulu Öndər Heydər Əliyev gələcək mübarizə və inkişaf yolunu müdrikliklə bəyan edərək belə deyirdi: "Azərbaycan xalqı birləşməli, öz müqəddəs torpaqlarını göz bəbəyi kimi qorumalıdır. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır". Ümummilli Lider Heydər Əliyev bütün həyatı boyu bu müqəddəs amala sadiq qaldı, xalqın və Vətənin istiqlalı uğrunda fədakarlıqla mübarizə apardı.

17 noyabr bir daha göstərdi ki, bütün ciddi-cəhdlərə baxmayaraq, azad yaşamaq üçün xəlq olunmuş milləti müstəmləkə boyunduruğu altında saxlamaq qeyri-mümkündür. Zəngin tarixə malik xalqımız artıq neçə ildir ki, Milli Dirçəliş Gününü bayram kimi qeyd edir və bu günün qeyd olunması bütün Azərbaycan xalqının mənəvi haqqıdır. İndi müstəqilliyimizin siyasi və iqtisadi sütunları getdikcə möhkəmlənir. Müstəqilliyin taleyini müəyyənləşdirən əsas amillər qorunub-saxlanılır, inkişaf etdirilir. Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev dövlətçiliyin möhkəmləndirilməsinə, iqtisadiyyatın inkişafına və milli-mənəvi dəyərlərin qorunub-saxlanmasına xüsusi diqqət yetirir. Azərbaycan bu gün həm siyasi, həm də iqtisadi cəhətdən dünyanın nüfuzlu dövlətlərindən birinə çevrilib. Bu gün Azərbaycan gələcəyə inamla baxır. Prezident İlham Əliyev ölkəmizi gələcəyə və yeni uğurlara inamla aparır. Bu, bir reallıqdır ki, müasir dünyada xarici ölkələr Azərbaycanın mövqeyi ilə hesablaşırlar. Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin xilas edib inkişaf yoluna çıxardığı dövləti daha da möhkəmləndirib. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil, dünyəvi və inkişaf edən bir ölkədir.

**ZÜMRÜD BAYRAMOVA**



# Ermənistanda yeni qiyam ab-havasına çağırış

## Mikael Minasyan: "İnqilabımız başladı... Elə indi, gecikmədən"



***Ermənistanda Nikol Paşinyanın "demokratiya" pərdəsi altındakı rejiminə qarşı inqilab ab-havası cücərməyə başlayıb. Artıq bəlli olduğu kimi, vaxtilə Serj Sarkisyan rejiminə yaxınlığı ilə seçilən "Çiçəklənən Ermənistan" partiyasının radikal müxalifətçiliyə keçidi barədə məlumatlar yayılıb. "Hraparak" qəzeti qeyd edir ki, adıçəkilən siyasi təşkilatın radikalçılığa meyillənməsi Ermənistanda baş qaldırmış anti-Rusiya xarakterli çağırışlardır. Daha dəqiq desək, Rusiyanın siyasi dairələri "Çiçəklənən Ermənistan" partiyasına bu sifarişi veriblər. Artıq digər loyal partiyaların da Rusiyanın nəzarəti altına keçdikləri barədə məlumatlar səslənməkdədir.***

Bu arada, Ermənistanın Vatikanda və Portuqaliyadakı keçmiş səfiri Mikael Minasyanın Paşinyanın dırnaqrarası demokratiyasını rejim adlandırması ölkədə yeni inqilab ab-havasının baş qaldırdığını əsas göstərir.

### "Kütləvi hipnoz tədricən hakimiyyətin yeganə istiqamətinə çevrilir"

"Populizm və diktatura daha yaxşı həyat təmin etmir və edə bilməz. Populizm diktaturası ölkənin təhlükəsizliyinə və vətəndaşların rifahına zəmanət vermir" deyə erməni mediasına açıqlama verən Minasyan, əlavə edib ki, hazırda Ermənistanda hakimiyyətdə olanlar dünən ağızları köpüklənə-köpüklənə irəlidə hər şeyin daha yaxşı, sadəcə, gözəl olacağını bildirirdilərsə, bu gün eyni təzyiqlə hər şeyin bir neçə il əvvəlkindən daha pis olmadığını sübut etməyə çalışırlar. "Bir müddət sonra, isə, hər şeyin o qədər də pis olmadığını eyni həvəslə sübut edəcəklər. Kütləvi hipnoz, tədricən, hakimiyyətin yeganə istiqamətinə çevrilir" deyə sabiq səfir öz fikirlərində bildirib.

Yeri gəlmişkən, onu da xatırlatmaq yerinə düşərdi ki, baş nazir Nikol Paşinyan daha əvvəllər ölkəsinin "Haykakan Jamanak" qəzetində rəhbərlik edib və bu gün onun baş redaktor olduğu qəzetini necə idarə edirsə, ölkəsini də eyni üsulla idarə etməsini istehza ilə qarşılayanlar var. Görünür, Mikael Minasyan buna işarə edərək deyib: "İnanılmaz sürətlə yeni bir trend, yeni hərəkat gəlir - "Aykakan Jamank" ölkəsinə son!"

### "Aykakan Jamanak" ölkəsinə son!" hərəkatına start verilir

"Əgər biz birlikdə yaxınlaşan fəlakətin gerçəkliyini tam dərk ediriksə, özümüzü ölkəmizin və gələcəyimizin sahibi sayırıqsa, "Aykakan Jamanak" ölkəsinə son!" hərəkatına qoşulmağa hazırıqsa, deməli, nə etdiyimizi bilirik. İnqilabımız başladı! Buna görə nə etməliyik?" deyə keçmiş diplomat bildirib.

Minasyan əlavə edib ki, əslində, sağlam düşüncəli bir insanın sülh içində yaşamaq, problemlərini həll etmək, uşaqların tərbiyəsi haqqında düşünmək, hədəflər qoymaq, gələn ay, il və ya gələcək üçün öz işlərini planlaşdırmaq istəyi aydındır.

### "Nə qədər çox olsaq, sabahkı fəlakətin ölçüsü də, o qədər kiçik olar"

SİTAT: "Bu gün ətrafındakı çılğın, dəli insanlar, sağlam olmayan və bitməyən səs-küylə bunu etmək mümkün deyil. Amma hər şey öz əlinizdədir. Danışın və yeni bir cərəyanın, yeni bir hərəkatın bir hissəsi olun! İş yerində danışın, dostlarınızı ziyarət edərkən, və ya söhbət edərkən həyatda danışın. Bu, inqilaba çağırış deyil. Bu, ölkəni xilas etməyin yoludur. Nə qədər çox olsaq, sabahkı fəlakətin ölçüsü də, o qədər kiçik olar. Buna görə də, hərəkət etmək lazımdır. Elə indi, gecikmədən".

Minasyan əlavə edib ki, proses artıq başlayıb: "Ana dilimiz və tariximiz adına parlaq bir gənclik İrəvanın mərkəzindəki küçələrə çıxdı. Parisdə hadisələrin mahiyyətini yetərincə dərk edən soydaşlarımız etiraz səslərini qaldırırlar. Artıq bir çox başqa proseslər başlayıb. Onlara qoşulun və ya yenilərini yaradın. Yeganə səhv hərəkətsizlikdir".

**Rövşən RƏSULOV**

# Ermənistan mətbuatı nə yazır?

## "İrates": "Paşinyan boş-boş danışır, onun deməyə sözü yoxdur"



***Ermənistanın "İrates" qəzetinin yazdığına görə, ölkənin baş naziri Nikol Paşinyan Los-Ancelesə səfəri zamanı erməni kilsəsini ziyarət etməyib və bu məsələ, nəinki keşişləri və apostolları, eləcə də, sadə dindar erməniləri hiddətləndirib. "Mitinqdə iştirak edir, lakin kilsəyə daxil olmağı lazım bilmir" deyə Los-Ancelesin erməni kilsəsinin ruhanisi erməni keşişləri ilə keçirilən toplantıda qəzetdə bildirib.***

Bu barədə yazan erməni nəşri digər maraqlı hadisəni də xatırladıb. Belə ki, həmin keşiş əlavə məlumat verib ki, Nikol Paşinyan ABŞ-ın erməni iş adamları ilə görüş keçirərkən, onların bir qismi salonu tərk ediblər. Onlar belə bir arqument irəli sürüblər ki, orada oturmaq lüzumsuz vaxt itkisidir. "Boş-boş danışmaqdır, onun deməyə sözü yoxdur" deyə Paşinyana xitabən bildirilib.

### "Hraparak": "Yerevan Universiteti çalxalanır"

"Hraparak" qəzeti yazır ki, Yerevan Dövlət Universiteti çalxalanır. Belə ki, rektor vəzifəsini icra edən Geqam Gevokyan öz yanına dekanları çağıraraq, onları təlimatlandırıb. "Tələbələrin dərsə davamiyyətləri, elə də önəmli deyil, hətta gəlməyə də bilərlər, ancaq elə edin ki, onlar bizim ali təhsil müəssisəmiz adından mitinqlərdə iştirak etməsinlər" deyə o bildirib.

Nəşr onu da yazıb ki, Gevorkyan, hətta daha açıq danışaraq deyib ki, o, milli dəyərlərə qarşı deyil. "Bəli, mübarizə aparmaq lazımdır, ancaq bizim universitetimizdən "yuxarılara" rəqəmlər çatmalı deyil. Məgər nə zamansa, mən universitetin qapısını bağlayarkən, bilmirdim kimlər qarşısında həmin qapıları bağlayıram?" deyə rektor vəzifəsini icra edən bildirib.

### "Jamanak": "Milli təhlükəsizlik xidməti hakimiyyət üçün özünün əvvəlki nüfuzunu itirib"

Milli təhlükəsizlik xidmətinin direktoru Artur Vanetsyanın istefasından sonra, hakimiyyətin ən etibarlı hüquq-mühafizə orqanı Xüsusi İstintaq Xidməti olub. Bu fikirləri "Jamanak" qəzeti yazıb. Erməni nəşrinə görə, prokurorluqda qaldırılan cinayət işlərinin bir çoxu, məhz Xüsusi İstintaq Xidmətinə, azı, polisə göndərilir. "Milli Təhlükəsizlik Xidməti isə hakimiyyət üçün özünün əvvəlki nüfuzunu itirib" deyə adıçəkilən nəşr yazır.

**R.RƏSULOV**

# Türkiyədə daha bir təhlükəli terrorçu zərərsizləşdirilib




Türkiyə təhlükəsizlik qüvvələri ölkə ərazisində daha bir uğurlu antiterror əməliyyatı keçirib. AZƏRTAC xəbər verir ki, noyabrın 7-9-da Ağrı vilayəti ərazisində həyata keçirilən bu antiterror əməliyyatında zərərsizləşdirilən 15 terrorçunun şəxsiyyəti müəyyənləşdirilib. Onlardan biri Daxili İşlər Nazirliyinin axtarışda olan terrorçular siyahısında yer alan Halis Ersayandır. Onun tapılması üçün böyük məbləğdə vəsait ayrılmışdı. H.Ersayan bir sıra ağır terror aktlarının təşkilində və icrasında ittiham olunur.

# "Taliban" Əfqanıstanda 4 polisi öldürdü

Əfqanıstanın şimalında "Taliban" hərəkatının hücumu nəticəsində azı dörd polis əməkdaşı həlak olub. Sinxua agentliyi xəbər verir ki, bu barədə yerli administrasiyanın nümayəndəsi məlumat yayıb. İnsident Baqlan əyalətində baş verib. Silahlılar hüquq-mühafizə orqanlarının əməkdaşlarına pusqu quraraq hücum edib. Həlak olanların arasında rayon polis idarəsinin rəhbəri də var.

# Fransa "sarı jiletlər"ə görə bir ildə 2,5 milyard avro itirib



Fransa "sarı jiletlər"in etiraz aksiyaları başlayandan bəri bir il ərzində 2,5 milyard avro itirib. RTL radiostansiyası bu barədə xəbər yayıb. Məlumatda deyilir ki, Fransa hökumətinin məlumatına görə, il ərzində nümayişlər zamanı zərər çəkən 5 min kiçik müəssisə və ticarət firması dövlətdən yardım istəyib. Əsasən də onlar hakimiyyətdən ümumi həcmi 460 milyon avroya çatan sosial ödəmələrin və digər vergilərin təxirə salınmasını xahiş edib. Həmçinin sığorta kompaniyaları həmin dövr ərzində 13 min müəssisəyə ümumilikdə 230 milyon avro təzminat ödəyib.

"Sarı jiletlər" hərəkatının başladığı 2018-ci ilin noyabrından mehmanxana və restoran biznesində, ticarət və nəqliyyat sahələrində çalışan 75 min fransalı işçi qismən işsizliklə üzləşib.

# Müsavatçılar arasında “miqrant alveri” qırğını başladı

## Ramis Yunus Arif Hacılını hədəfə alıb



***Almaniyada miqrant alveri adı altında biznes quran bir qrup müsavatçının saxlanılmasının ardınca, Müsavat partiyasının başqanı Arif Hacılı öz partiyadaşları tərəfindən sərt ittihamlara məruz qalması ilə yanaşı, növbədənkənar qurultayın çağırılıb, onun istefa verməsi tələbləri də irəli sürülməyə başlanılıb. Bu dəfə ABŞ-da yaşayan müsavatçı Arif Yunus A.Hacılıya qarşı bir sıra sərt ittihamlar irəli sürərək, iddia edib ki, bütün bunlardan sonra başqan mütləq şəkildə öz postunu tərk etməlidir. O, Hacılının Müsavat partiyasının “imicinə” zərbə vurduğunu bildirib.***

### Arif Yunus: “Bu biabırçı vəziyyətin öhdəsindən gəlmək üçün növbədənkənar partiya qurultayını çağırmağı məsləhət görürəm”

“Alman federal polisi tərəfindən açılmış cinayət işində hallanan Avropada bu partiyanın “AKM” adı altında yaradılan mərkəzin təşəbbüskarı, şəxsən indiki başqan A.Hacılıdır. Bütün sivil dünyada, belə hallarda, partiyanı zərbədən uzaqlaşdırmaq üçün onun rəhbəri istefa verir və məhz buna görə hörmətli Arif bəy istefa mədəniyyətini göstərməyinizi və bu biabırçı vəziyyətin öhdəsindən gəlmək üçün növbədənkənar partiya qurultayını çağırmağı məsləhət görürəm” deyə tələb irəli sürən A.Yunusun bu sözlərindən qıcıqlanan A.Hacılı, ona cavab verib və əsassız iddia irəli sürüb: “ Almaniya polisinin hansı sənədində Müsavat “AKM” sözü var? Müsavata qarşı bu böhtan və qarayaxma kampaniyasına nə zaman son verəcəksiniz?”

Buna baxmayaraq, məhz A.Hacılı bir neçə il əvvəl, Avropada təsis olunan Müsavat AKP-nin iclasına qatılaraq, hətta “siyasi mühacir” adı altında saxta yollarla oraya gedən bir neçə nəfərə diplomlar da vermişdi. Bu gün isə, A.Yunusun ittihamlarına qarşı, sadəcə, yalan cavab verməkdən başqa çarəsi qalmayıb. Görünür, ona görə də qarşı tərəfə suçlamalar irəli sürərək, davam edib ki, A.Yunus heç də 1992-ci ildən Müsavatın üzvü deyil və s.

### Arif Hacılı: “İndi əməllərinizə görə, sizi partiyaya üzv edənlər məsuliyyətmi daşıyır?”

Daha dəqiq desək, A.Hacılı R.Yunusu Müsavat partiyasına mühacirət məqsədi ilə üzv olduğunu deyib: “Siz Amerikaya mühacirət ərəfəsində (qısa müddət qalmış) partiyaya daxil olmusunuz. Mühacirət edəcəyinizi gizlətmisiniz. Sizi partiyaya qəbul edənləri aldatmısınız. İndi əməllərinizə görə, sizi partiyaya üzv edənlər məsuliyyətmi daşıyır?”

R.Yunus isə, öz növbəsində, bu ittihamı “ağ yalan” adlandırıb: “Arif bəy, sizə yaraşmaz belə ağ yalanlar. İsa bəyin imzası ilə Müsavatın rəsmi arayışını cap etsəm ki, 1992-ci ildən mən Müsavat partiyasının üzvüyəm və ilk gündən partiyanın bərpasında iştirak etmişəm, onda nə deyəcəksiniz? Mən Nazirlər Kabinetində Niyazi İbrahimlə (Müsavatin o vaxtki ilk baş katibi) partiyanın bərpa işləri ilə məşğul olanda, siz prezident aparatında işləyirdiniz və yalnız hakimiyyətdən gedəndən sonra partiya işlərinə goşuldunuz. Ayıbdır”.

### Müsavat başqanı: “Müsavatın bərpa mərkəzinin həndəvərində fırlana bilməzdiniz”

A.Hacılı da partya üzvünü yalan danışmaqda günahlandırıb: “Düz deyirsiniz ki, yalan danışmaq sizə yaraşar. Mən partiyanın bərpa mərkəzinin üzvü olmuşam. İndi zaman dəyişib deyə belə danışırsınız. O vaxt Müsavatın bərpa mərkəzinin həndəvərində fırlana bilməzdiniz. Bu nağılları sizi tanımayan gənclərə danışın. Partiyaya isə 2000- ci ildə, ABŞ-a getmək ərəfəsində qəbul olmusunuz”.

Bundan sonra qarşılıqlı ittihamlar daha da ciddiləşib. R.Yunus Müsavat qərargahını təmir etdiyini açıqalyıb: “Utanmırsınız? Partiyanın binasını, onun remontunu, onun bütün mebeli, telefonlarını və başqa problemlərini kim şəxsən həll edib? Siz, yoxsa Ramis Yunus? Davam edim, yoxsa bəsdir? Hər şeyi danışım, yoxsa..?”

A.Hacılı isə partiyaya binanı prezident Elçibəyin verdiyini deyib: “İsa bəyin təkidi və mənim xahişimlə. Partiya təmir olunmamışdı. Mebeli yox idi. Telefonlarla nə oyun qurulmuşdusa, 12 min $ telefon borcumuz olduğu üçün telefonlardan, ümumiyyətlə, məhrum olduq. İndi də bu qadağa altındayıq. Katel işlədirik. Haradansa oğurlanıb gətirilib. Müsavatın dəhlizinə salınmış köhnə xalçalara görə isə bizi az qala tuturdular. Dedim axı, nağılları bu işlərdən xəbərsiz olan gənclərə danışın”.

### Yadigar Sadıqlı: “Arif Hacılı “mühacir problemi” məsələsinin aydınlaşdırılmasında maraqlı olmayıb”

Məsələ ilə bağlı mətbuata açıqlama verən Müsavat başqanlığına keçmiş namizəd Yadigar Sadıqlı da baş verən biabırçılığa görə Müsavat partiyasının başqanı Arif Hacılını ittiham edib. Y.Sadıqlının sözlərinə görə, “Müsavat başqanı Arif Hacılı zaman-zaman qabaran və partiyanın adının neqativ planda hallanmasına yol açan “mühacir problemi” məsələsinin aydınlaşdırılmasında maraqlı olmayıb”.

Beləliklə, fakt budur ki, Müsavat partiyasının rəhbərliyinin mühacir biznesi ifşa olunduqca, saxta yollarla Almaniyaya köçən şəxslər barədə isə deportasiya olunmaq qərarı üzə çıxdıqca, özünüifşaların sayı daha da artacaq. Artıq bütün faktlar tam çılpaqlığı ilə gözlər önündədir.

*Rövşən NURƏDDİNOĞLU*

# İlqar Məmmədovun avtoritar idarəçiliyi

## Bu reallıq “REAL”dakı istefaları artırır

***Son bir neçə gündə “REAL” partiyasında baş verən qalmaqallar növbəti istefalar dalğasını reallaşdırmaq üzrədir. Partiyanın qurultayının müəyyən edilməsi və bu yöndə aparılan təşkilatdaxili müzakirələrdə qurumun funksioneri Azər Qasımlının sədr İ.Məmmədovu hədəfə alması, artıq belə bir nəticəyə gəlməyə zəmin yaradır ki, orada avtoritar idarəçilik mühiti mövcuddur.***

Liberal dəyərlərdən, demokratik prinsiplərdən dəm vuran İ.Məmmədovun sonda meydanda tək buraxılacağını da istisna etmək olmaz. Misal üçün, hələ bir müddət əvvəl, partiyanın daha bir neçə üzvü təşkilatda müxtəlif tövsiyələr irəli sürdüklərini, lakin həmin tövsiyələrinin qəbul edilmədiyini deyərək, istefa verdiklərini bəyan etdilər.

### Azər Qasımlı özünə yeni siyasi partiya yaradaraq, İlqar Məmmədovdan narazıları öz ətrafına toplayacaq



Bu dəfə isə, “REAL”ın yaranmasında fəaliyyət göstərmiş A.Qasımlının qalmaqallı istefası partiyadaxili narazıların da, onu dəstəkləməsi ilə nəticəsini tapdı. Hətta belə bir məsələ də ortaya çıxıb ki, A.Qasımlı özünə yeni siyasi partiya yaradaraq, narazıları öz ətrafına toplayacaq. Əlbəttə ki, bu, vəziyyəti bir az da gərginləşdirəcək. Görünür, bu səbəbdən, partiyanın digər aparıcı funksioneri Natiq Cəfərli İ.Məmmədovun tapşırığı əsasında A.Qasımlının istefasını yumşaq şəkildə şərh edib. Misal üçün o bildirib ki, A.Qasımlının “REAL” partiyasından istefa verməsinə təəssüf edir və s.

Ortada kompromat təhlükəsi var?

Lakin onun səmimiliyi, ümumiyyətlə, görünmür və bu baxımdan, N.Cəfərli bildirib ki, A.Qasımlı istefa verməsi barədə emosional danışıb və ümid edir ki, bir müddətdən sonra o, fikrini dəyişərək, dostlarının yanına qayıdacaq və s. Məhz bu ifadədən də, belə nəticəyə gəlmək olar ki, N.Cəfərlinin, necə deyərlər, “pişim-pişimlə” danışması, yəni ehtiyatlı fikir bildirməsi sədrinin ona verdiyi tapşırığıdır. Əgər A.Qasımlı özünə siyasi təşkilat yaradacaqsa, həmin təşkilata İ.Məmmədova etiraz edən “REAL” üzvlərini də qatacaqsa, demək, vəziyyət kökündən dəyişəcək. Ona görə də, N.Cəfərli qarşı tərəfi emosianallıqda günahlandırmaqla deyib ki, əgər qurultayla bağlı A.Qasımlının təklifi keçməyibsə, onun buna görə istefası da doğru deyildi və s...

Nəticə isə, budur ki, artıq iş-işdən keçib və ortada heç bir kompromis görünmür. Əksinə, “REAL” partiyasının sədri İ.Məmmədovun N.Cəfərli vasitəsi ilə canfəşanlıq göstərməsinə daha bir səbəb A.Qasımlının əlində olan bir sıra kompromatları ictimailəşdirmək qorxusudur. Hər halda, adıçəkilən partiyada cərəyan edən proseslər də, belə nəticəyə gəlməyə zəmin yaradır. Qurultay baş tutacaqsa, oradan növbəti istefaları gözləmək kifayət qədər mümkündür.

*Rövşən NURƏDDİNOĞLU*

# “Başqa ölkələrdə xoşbəxtlik tapmaq o qədər də uğurlu gediş deyil”



Başqa ölkələrdə xoşbəxtlik tapmaq o qədər də uğurlu bir gediş deyil. Həmin xoşbəxtliyi Azərbaycanda da tapmaq mümkün idi, lakin indiki müasir gənclər və onlardan yararlanmağa çalışan qüvvələr bundan istifadə etdilər. Bunu SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.

O qeyd edib ki, bu minvalla Avropaya köçən gənclər var: “Həqiqətən elm, təhsil ardınca gedənləri qəbul edirəm. Amma öz ölkəsini pisləmək, demokratiyadan tutmuş hər cür Azərbaycan haqqında nifrətlər yağdırdıqdan sonra saxta sənədlərlə gedib başqa ölkələrdə yerləşənləri yox. Almaniyada prosesin başlamasının səbəbi məhz Azərbaycandan gedənlərin 90 faizinin yalanla getməsi olub”. Politoloq bildirib ki, onlar mitinqlərdə çıxıb yalandan polisə yaxınlaşıb polisi təhqir edərək, yaxud polis yolu açmaq istəyərkən və yaxud insanları kənarlaşdırmaq üçün bəzi vaxtlar kobudluqla davranmasından yararlanırlar: “Təəssüf ki, özünü müxalifət partiyası adlandıran partiyalarda da hazır mövzular, blanklar var. Bu məsələ uzun müddətdir Azərbaycanda gündəmdədir ki, qeyri-qanuni yolla bundan yararlanmağa çalışırlar. İnsanlara bu blankları sataraq saxta şəkildə göstərirlər ki, bu vətəndaş müxalif partiyanın üzvüdür. Və burada daha çox Müsavat və AXCP-nin adları hallanır”.

C.Nuriyev vurğulayıb ki, çox təəssüflə deyirəm Rəsulzadənin yaratdığı bir partiya görün nə hala salınıb. “AXCP-dən mən başqa bir şey gözləmirdim və məni təəccübləndirmədi. Lakin Müsavat partiyasının bu işə qoşulması artıq bu insanların dəyərsiz olduğunu sübut edir. Bu saxta blankları satan adamlar kimliyindən və hansı partiyanın üzvü olmasından asılı olmayaraq dəyərsiz və şərəfsizdirlər. Çünki bu adamalar öz şəxsi maraqları üçün insanların həyatları ilə oynayıblar. Amma qürbət nə qədər xoş olsa da, yenə də vətən yaxşıdır”.

# Avropadakı tərbiyəsiz söyüş müxalifəti ifşa olundu

***Bəlli olduğu kimi, xaricdəki söyüş qrupunun fəal üzvləri qanunsuz əməllərlə məşğul olduqları üçün, Almaniya polisi tərəfindən həbs olunublar. Bu isə, həm də Azərbaycandakı müxalifətin ifşası deməkdir. Çünki həmin xaricdəki söyüş müxalifətini saxta partiya vəsiqələri ilə təmin edib, Avropaya göndərən, məhz müxalifət rəhbərliyi olub. Söhbət etdiyimiz müsahiblərimiz söyüş müxalifətinin ifşa olunmasının Azərbaycanın müəyyən xarici qüvvələrə bağlı olan partiya sədrlərinin siyasi iflası olacağını bildirdilər.***

### Millət vəkili Tahir Rzayev: "Tədricən xaricdəki söyüş müxalifətinin hamısı ifşa olunacaq"



- Bu, bir faktdır ki, dağıdıcı müxalif ünsürlərin xarici qüvvələrdən ibarət olan havadarları var. Həmin xarici məkrli qüvvələr müxalif pozucu qruplara təlimatlar və göstərişlər verməklə, onları öz məkrli planlarının yerinə yetirilməsinə alət edirlər. Artıq sübuta yetirilir ki, xaricdəki söyüş qrupunu müəyyən qanunsuz əməllər törətməyə müxalifətin başbilənləri olan Əli Kərimli, Cəmil Həsənli, Arif Hacılı və digərləri təhrik ediblər. Bu, çirkinlər biznesidir. Buna görə də, bu partiya yetkililəri məsuliyyət daşıyırlar. AXCP, Müsavat və digər aqressiv partiyalar, bir çox insanlara saxta partiya vəsiqələri verməklə, onları xaricə göndəriblər. Xaricə gedən saxta vəsiqə sahibləri hay-küy qaldırırlar ki, guya siyasi mühacirdirlər, guya Azərbaycanda siyasi təzyiqlərə məruz qalıblar. Təbii ki, bütün bunlar cəfəngiyyatdan və şər-böhtandan başqa bir şey deyil. Hələ bir neçə il bundan əvvəl Yeni Azərbaycan Partiyası çirkin vasitələrlə xaricə üz tutan saxta müxalif partiya üzvlərini milli maraqlara zərbə vurmaqdan çəkinməyə çağırmışdır. Söyüş müxalifətinin fəal üzvləri olan şəxslər xarici ölkələrdə ölkəmizin imicinə zərbə vurmaqdan ötrü Azərbaycana əks olan qüvvələrlə birləşirlər və Azərbaycana qarşı qarayaxma kampaniyası aparırlar. Artıq sübut olundu ki, bu adamlar kimdir və bu adamların əvvəli nə olub və bunlar indi hansı yollarla gedirlər. Bu gün Almaniyada, Hollandiyada, Belçikada, İngiltərədə və digər ölkələrdə oturan söyüş müxalifətinin əksəriyyəti burdan siyasi mühacir adı ilə gediblər və orda Azərbaycanın əleyhinə kampaniyalar aparırlar. Faktlar göstərir ki, doğrudan da, bu şəxslər düzgün yolda deyillər. Bunlar Azərbaycan dövlətinin və xalqının əleyhinə, uzun müddətdir ki, bu işlərlə məşğuldurlar. Təbii ki, tədricən xaricdəki söyüş müxalifətinin hamısı ifşa olunacaqlar və Azərbaycana gətiriləcək, layiq olduqları mənəvi və hüquqi cəzanı alacaqlar.

### Millət vəkili Fazil Mustafa: "Artıq bunu alman polisi edir"



- Xaricdə həbs olunan şəxslərin, konkret kiminlə və hansı partiya ilə əlaqələri olduğu yalnız araşdırmadan sonra bəlli olacaq. Müsavat partiyasının yetkililəri isə, açıqlama verdilər ki, həbs olunanların Müsavat partiyası ilə əlaqəsi yoxdur. Həm də qeyd edirlər ki, tutulanların arasında Müsavat üzvü yoxdur. Amma hər halda, ola bilər ki, Müsavat rəhbərliyi faktları əsaslı və əsassız inkar elə bilərlər, bunu da, Azərbaycanın hüquq-mühafizə orqanları araşdırıb, dəqiq faktlarla ortaya qoymalıdır. Ən azı, alman polisi tərəfindən bu addımın atılması onu göstərir ki, burda hansısa bir qərəzçilikdən söhbət gedə bilməz. Yəni konkret fakta görə atılan addımdır. Azərbaycanda çox vaxt deyirlər ki, bu iqtidarın müəyyən dərəcədə qərəzidir və qəsdən qurduğu kampaniyadır. Artıq bu kimi fikirlər söyləmək mümkün deyil. Çünki artıq bunu alman polisi edir. Alman polisi də Azərbaycan hakimiyyətinin iradəsi ilə hərəkət etmir ki, hansısa ehtimallar irəli sürülsün. Ona görə də, burda olan məqamlar düşündürücü məqamlardır. Amma konkret şəxslərin məsuliyyətinə və partiya əlaqələrinə gəldikdə isə, bunların ciddi araşdırılmasına zərurət var. Mən əvvəlcədən kimisə ittiham etmək istəmirəm. Bununla belə, hansısa əlaqələr var ki, bu, müəyyən dərəcədə gün işığına çıxdı. Eyni zamanda, Azərbaycan hüquq-mühafizə orqanları da dəqiq araşdırma aparıb, ortaya tutarlı dəlillər qoymalıdırlar ki, kimisə əsassız ittiham etmək olmasın. Kiminsə suçu varsa, yəni hansısa partiyanın bu məsələdə rolu varsa, onlar üzə çıxarılmalıdır. Bu, bir reallıqdır ki, əvvəldən bu şəbəkə vardı. Bir qrup insan siyasi fəaliyyətlə məşğul olmadan, bu cür çirkin vasitələrlə xaricdə sığınacaq almaq üçün özünü polisin dubinkasının altında bir şəkil çəkdirərək, istəklərinə müəyyən dərəcədə nail olurdu. İndiki vəziyyətdə, hesab edirəm ki, bu, həmin spekulyasiyalara son qoymaq üçün imkan yaradacaq.

### "Bakı Xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev: "Müxalifət bu çirkli biznesdə iştirak etdiyinə görə, məsuliyyət daşıyır"



- Bütün hallarda xaricdə ifşa olunmuş həmin adamların vaxtı ilə və indi Azərbaycanda partiyalara müxtəlif tellərlə bağlı olduqları üçün, siyasi təşkilatlar məsuliyyət daşıyırlar. Nəzərə alsaq ki, onların əksəriyyəti Müsavatın keçmişdəki fəallarıdır və "Milli Şura"da fəaliyyət göstərən bəzi qurumların üzvləri olublar. Bu qurumlar həm öz üzvlərinin fəaliyyətini yanlış istiqamətə yönəltdiklərinə görə, həm də onlarla birlikdə bu çirkli biznesdə iştirak etdiklərinə görə, məsuliyyət daşıyırlar. Çünki böyük və ciddi ehtimallar var ki, xaricdə qurulmuş və böyük pullar, qazanclar gətirən həmin o siyasi mühacir biznesindən gələn gəlirlərin müəyyən bir hissəsi Azərbaycana gəlir və bəzi radikal qüvvələr üçün həmin o gələn pullar yaşamaq və dolanışıq mənbəyidir. Ona görə də, həmin xaricdə siyasi mühacir şəbəkəsi yaradan radikal qüvvələr, tamamilə məsuliyyət daşıyırlar. Bu biabırçı faktlara hələ indiyə qədər Müsavat partiyası və başqa radikal qüvvələr heç bir reaksiya verməyiblər. Bunun özü bir daha göstərir ki, bəli, onlar da bu işdə maraqlı olublar və məsuliyyət daşıyırlar.

### "Müasir Müsavat" partiyasının sədri Hafiz Hacıyev: "O tərbiyəsiz uşaqları Avropanın küçələrindən yığışdırmaq vacibdir"



- Mən dəfələrlə demişəm. 4 ay bundan öncə, ölkənin xarici kəşfiyyat orqanlarına müraciət etdim ki, o küçə uşaqlarını zərərsizləşdirmək lazımdır. Onun sözlərinə görə, o tərbiyəsiz uşaqları Avropanın küçələrindən yığışdırmaq vacibdir. Çox sevinirəm ki, buna gec də olsa, nail olduq. Kərimli Əli, Qəmbər İsa, Həsənli Cəmil kimi olan bu küçə uşaqları Azərbaycanın əleyhinə çox böyük antiermәni təbliğatına qoşulmuşdular. Müsavat və AXCP liderləri həmin o küçə uşaqlarını Avropa dövlətlərinə göndərməklə, böyük bir siyasi biznes qurmuşdular. Buna görə də, Kərimli Əli, Qəmbər İsa, Həsənli Cəmil və Hacılı Arif kimilər həmişə dələduz olublar. Bir sözlə, adları çəkilən şəxslər, həmişə xalqın pis gələcəyi üçün çalışıblar, imicini ləkələməyə cəhd göstəriblər. Xarici qüvvələrə satılmaqla özlərinə böyük bir vardövlət toplayıblar. Demək olar ki, tarix boyu bu şəxslər belə olublar. Ona görə də, bu küçə uşaqları Azərbaycanı satmağa hazır olan insanlar olublar. Bu gün onların satqın və xəyanətkar əməllərinin üstü açıldıqca, xaricdəki mühacirlər ifşa olunurlar. Çox sevindirici haldır ki, bizim xarici işlər nazirinin, ordakı səfirlərinin əməli hərəkəti nəticəsində, söyüş müxalifəti həbs olundu. İstərdim ki, onların burdakı himayədarı olan Kərimli Əli, Qəmbər İsa, Həsənli Cəmil də cinayət məsuliyyətinə cəlb edilib, həbs olunsunlar. Onlara o partiya biletlərini satan Kərimli Əli, Qəmbər İsa, Hacılı Arif məhkəmə qarşısına çıxarılaraq, layiq olduqları cəzanı almalıdırlar. O cümlədən, bu ermənilərin qayınatası olan Həsənov Cəmil Azərbaycan vətəndaşlığından xaric edilsin, o, Azərbaycanın övladı deyil, o, Azərbaycana həmişə xəyanət edən insan olub. Ümumiyyətlə, dağıdıcı ünsürlər Azərbaycandan xaric edilsinlər və getsinlər orda partiya bileti satdıqları insanlarla bir yerdə yaşasınlar. Bütün bu məsələlərin məsuliyyətini bu ünsürlər daşıyır və onlar da istintaqa cəlb edilməlidirlər. Çünki xaricdəki söyüş müxalifətinə bunlar saxta arayışlar veriblər, adlarını saxta əzabkeş kimi göstəriblər. Bu fakt öz təsdiqini tapıbdır və istintaqa bunlar da cəlb edilməli, cinayət işi qaldırılmalı və haqlarında çox qəti tədbir görülməlidir. Azərbaycan dövlətçiliyini heç bir mafioz qrupa, heç bir siyasi alverçiyə bağışlaya bilmərik. Azərbaycan dövlətçiliyinin əbədi olaraq qorunub-saxlanılması üçün, əlimizdən nə gəlirsə, hamısını etməliyik.

***GÜLYANƏ***

# Dərman preparatlarının ölkəyə qanunsuz yolla gətirilməsi cəhdinin qarşısı alınıb

Dövlət Gömrük Komitəsinin Qərb Ərazi Baş Gömrük İdarəsinin əməkdaşları xeyli miqdarda dərman preparatının ölkəyə qanunsuz yolla gətirilməsi cəhdinin qarşısını alıblar.

Komitənin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən AZƏRTAC-a bildirilib ki, Əməliyyat və Təhqiqat İdarəsinin Əməliyyat şöbəsinə daxil olan məlumat əsasında "Qırmızı Körpü" gömrük postunda Gürcüstandan "Opel Vectra" markalı avtomobil ilə gələn Azərbaycan vətəndaşı saxlanılıb və sürücüsü şifahi sorğu-sual olunub. Sorğu-sual zamanı vətəndaş idarə etdiyi nəqliyyat vasitəsində gömrük nəzarətindən gizlədilən və bəyan edilməyən hər hansı predmetin olmadığını bildirib. Daha sonra avtomobilə gömrük baxışı keçirilib. Nəqliyyat vasitəsinin yoxlanması zamanı yük yerində 48 ədəd üzərində "Ovitrelle 250 mcg/05 ML", 1456 ədəd "Paxıl 20 mg", 600 ədəd "Biosteron Dhea 25 mg", 1344 ədəd "Nexium 20 mg", 1470 ədəd "Nexium 40 mg", 2016 ədəd "Estrofem 2mg", 3000 ədəd "Roaccutane 20 mg", 1530 ədəd "Roaccutane 10 mg", 2000 ədəd "Anti-fosfat cc 500 mg", 990 ədəd "Progestan 200 mg", 1600 ədəd "Anti-asidoz 500 mg", 112 ampula "Devit-3300000 I. U/ ml", 2800 kapsul üzərində "Hydrea 500 mg" yazılan dərman preparatı aşkarlanıb. Faktla bağlı araşdırma aparılır.



# "DAĞLIQ QARABAĞ BÖLGƏSİNİN AZƏRBAYCANLI İCMASI" İCTİMAİ BİRLİYİ

***Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması 1992-ci il martın 24-də ATƏM-in Nazirlər Şurasının Helsinkidə keçirilən birinci əlavə görüşündə imzalanmış sənədin 9-cu bəndinə əsasən yaradılmışdır. ATƏM/ATƏT-in Minsk Qrupu təsis edilərkən Ermənistan və Azərbaycan münaqişə tərəfləri, Dağlıq Qarabağın azərbaycanlı və erməni icmasına isə münaqişənin nizama salınması istiqamətində aparılan danışıqlarda maraqlı tərəf kimi mandat verilmişdir. Bu mənada, Dağlıq Qarabağın azərbaycanlı icması 1992-ci ildən başlayaraq müxtəlif vaxtlarda aparılan danışıqlarda iştirak etmişdir.***

Bununla yanaşı, 2006-cı ildə Dağlıq Qarabağın Azərbaycanlı İcması ictimai birlik formasında Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq, Ədliyyə Nazirliyində qeydiyyata alınmışdır. İcmanın fəaliyyətinə hüquqi status verilməsi və bir ictimai birlik kimi təşkilatlanması onun daha səmərəli fəaliyyət göstərməsinə imkan yaratdı. Azərbaycan Respublikasının Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının yenidən formalaşması istiqamətində atılan növbəti addım isə, 2009-cu il iyunun 5-də Bakı şəhərində icmanın I Qurultayının keçirilməsi oldu.

Qurultaya 65 min nəfərdən çox icma üzvünü təmsil edən 350 nəfər nümayəndə seçilmiş, eləcə də, qurultayın işində Azərbaycanda fəaliyyət göstərən xarici ölkə səfirliklərinin, beynəlxalq və qeyri-hökumət təşkilatlarının 200 nəfərdən çox nümayəndəsi qonaq kimi iştirak etmişdir. Qurultayda "Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin Nizamnaməsinə əlavə və dəyişikliklər edilmiş və icmanın 22 nəfərdən ibarət idarə heyəti, idarə heyətinin sədri, əlaqələndirmə şurasının sədri və nəzarət-təftiş komissiyası seçilmişdir. Şuşa rayon icra hakimiyyətinin başçısı Bayram Səfərov "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi idarə heyətinin sədri və icmanın rəhbəri seçilməklə yanaşı, Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsindən məcburi köçkün düşmüş azərbaycanlı əhalisinin bu çağırışına onların biganə qalmayacağı, münaqişənin ədalətli həlli üçün daha qətiyyətli və prinsipial mövqe tutacaqları öz əksini tapdı.

Həmin gün yeni seçilmiş idarə heyətinin üzvlərinin qurultaydan sonra xarici ölkələrin Azərbaycanda fəaliyyət göstərən səfirləri ilə görüşü keçirilmiş, Ermənistan hərbi təcavüzü və onun nəticələri barədə diplomatlara məlumat verilərək, təmsil etdikləri ölkələrdə Azərbaycan həqiqətlərinin obyektiv şəkildə çatdırılması işində onların rolunun mühüm əhəmiyyət daşıdığı vurğulanmışdır.

2009-cu il iyunun 12-də "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsi Azərbaycanlı İcması" İctimai Birliyinin idarə heyətinin ilk iclası keçirilmiş, idarə heyətinin üzvləri arasında vəzifə bölgüsü aparılmış, onların daxil olduğu elm, təhsil, mədəniyyət, icmadaxili məsələlər, beynəlxalq əlaqələr, informasiya və ictimaiyyətlə əlaqələr, hüquqi təminat və insan hüquqları bölmələrinin fəaliyyət istiqamətləri müəyyənləşdirilmiş və əlaqələndirmə şurasının strukturu təsdiq edilmişdir.

İclasda Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev çıxış edərək, icmanın yenisəbəbdən, dövlət başçısı İlham Əliyev 2009-cu il avqustun 31-də "Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyinin fəaliyyətinin maddi-texniki təminatının yaxşılaşdırılması tədbirləri haqqında Sərəncam imzaladı.

Sərəncamda 65 min nəfərdən çox insanı birləşdirən Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcmasının rolunun əhəmiyyətli dərəcədə artdığı vurğulanaraq, icmanın keyfiyyətcə yeni, təşkilati baxımdan möhkəmlənmiş ictimai birliyə çevrilməsi və idarəetmə strukturlarını yaratması bildirilirdi.

Dövlət başçısı tərəfindən Dağlıq Qarabağın azərbaycanlı icmasına göstərilən qayğı və diqqət, icmanın qarşısında duran vəzifələrin həyata keçirilməsi işinə stimul vermiş və bu istiqamətdə İctimai Birlik öz fəaliyyətini genişləndirərək, Qarabağ həqiqətlərinin beynəlxalq ictimaiyyətə çatdırmaq məqsədilə, eləcə də, təcavüzkarın ifşası istiqamətində Azərbaycanda fəaliyyət göstərən müxtəlif ölkələrin səfirlikləri və beynəlxalq qurumların nümayəndələri ilə, müntəzəm olaraq, görüşlər keçirir.

Belə ki, 2009-cu il iyulun 2-də icmanın idarə heyətinin ATƏT-in həmin dövrdəki fəaliyyətdə olan sədri, Yunanıstanın xarici işlər naziri xanım Dora Bakoyannis, oktyabrın 6-da isə ATƏT-in Minsk Qrupunun həmsədrləri ilə görüşləri keçirilmişdir. Keçirilən görüşlərdə idarə heyətinin üzvləri bildirmişlər ki, Dağlıq Qarabağın Azərbaycan Respublikası tərkibində statusu azərbaycanlılar doğma yurdlarına qayıdandan, eləcə də, hər iki icma üzvlərinə bərabər şərait yaradıldıqdan sonra müəyyənləşdirilə bilər. Dağlıq Qarabağdan olan məcburi köçkünlərin öz yurdlarına qayıtmasının, münaqişənin ədalətli həlli üçün başlıca şərt olduğu vurğulanmaqla yanaşı, bu bölgənin bütün dövrlərdə Azərbaycan mədəniyyətinin mərkəzi olduğu bildirilmiş və qeyd edilmişdir ki, Ermənistanın hrəbi təcavüzü nəticəsində həmin ərazilərdəki xalqımızın çoxəsrlik tarixi və mədəniyyət abidələrinin hamısı dağıdılmış və ya məhv edilmişdir.




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

mişdir.

Dağlıq Qarabağın Azərbaycanlı İcmasının nümayəndələri ilə yanaşı, Azərbaycanın tanınmış ziyalıları, görkəmli elm və mədəniyyət xadimlərinin iştirak etdikləri qurultayda keçən dövr ərzində görülmüş işlər ətraflı təhlil edilmiş və icma qarşısında duran əsas vəzifələr müəyyənləşdirilmişdir.

Qurultayda Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları və hərbi təcavüzü nəticəsində Dağlıq Qarabağ azərbaycanlılarının düşdüyü acınacaqlı vəziyyət, eləcə də, ermənilərin azərbaycanlılara qarşı tarix boyu törətdikləri soyqırımı cinayətlərinin dünya ictimaiyyətinə çatdırılması icmanın qarşısında duran ən mühüm vəzifə kimi vurğulanmış və gələcək tədbirlər planının həyata keçirilməsi mexanizmləri göstərilmişdir.

Qurultayda beynəlxalq təşkilatlara, xarici ölkələrin parlamentlərinə, dövlət və hökumət başçılarına, eləcə də, dünya ictimaiyyətinə ünvanlanmış müraciətdə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına uyğun həll edilməsi üçün ardıcıl səylərin göstərilməsidən formalaşmasının böyük əhəmiyyət kəsb etdiyini qeyd etmiş, idarə heyətinin iki istiqamətdə fəaliyyət göstərməsini, yəni həm ölkə daxilində iş aparmasını, həm də beynəlxalq qurumlarla əlaqələrin genişləndirilməsinin vacibliyini vurğulamışdır.

Akademik R.Mehdiyev, icmanın fəaliyyətini canlandırılması və məqsədyönlü xarakter alması üçün, Qarabağ əhalisi arasında maarifləndirmə işlərinin səviyyəsini yüksəltməyin zəruriliyini bildirmiş, bu istiqamətdə icmanın saytı, mətbu orqanın xüsusi rol oynayacağının və Azərbaycanın mövqeyinin dünyaya çatdırılması üçün beynəlxalq tədbirlərin keçirilməsinin əhəmiyyətini xüsusi qeyd edərək, bu görüşlərin sayəsində ermənilərin azərbaycanlılar barədə yaratdıqları yanlış təsəvvürü heçə endirməyi tövsiyə etmişdir.

İcmanın qarşıya qoyduğu məqsədlərə çatmaq üçün təcavüzkarın ifşası istiqamətində, eləcə də, münaqişənin nizama salınması prosesində Azərbaycanın milli və dövlətçilik maraqlarından çıxış edərək daha səmərəli fəaliyyət göstərməsi çox vacib və əhəmiyyətlidir. Bu

Ermənilərin daim öz müqəddəratını təyinetmə prinsipini ön plana çəkməsinə baxmayaraq, beynəlxalq hüquqda bu prinsipin heç bir vəhclə müəyyən dövlətin ərazisinin bir hissəsinin həmin dövlətin razılığı olmadan ondan ayrılmasına əsas və icazə vermədiyi bildirilmişdir. İdarə heyətinin üzvləri keçirilən görüşlərdə Azərbaycan dövlətinin Dağlıq Qarabağın inkişafı üçün orada yaşayacaq hər iki icmanın xeyrinə lazımi tədbirləri görməyə hazır olduğunu qeyd edərək, bu mərhələyə keçmək üçün, ilk növbədə, Ermənistan tərəfindən bütün Azərbaycan ərazilərinin işğalına son qoyulmasının vacibliyini diqqətə çatdırmışlar.

Bununla yanaşı, Dağlıq Qarabağın Azərbaycanlı İcması regionda və dünyada baş verən hadisələrə, müntəzəm olaraq, öz münasibətini bildirmiş, beynəlxalq tədbirlərdə mövqeyini açıqlamışdır. Belə ki, 2009-cu il oktyabrın 12-də İctimai Birliyin idarə heyətinin iclasında Türkiyə və Ermənistan arasında münasibətlərin normallaşdırılması və diplomatik əlaqələrin yaradılmasına dair protokolların imzalanması ilə bağlı qardaş ölkənin ictimaiyyətinə edilən müraciətində Azərbaycan ərazilərinin işğalının davam etdiyi hazırkı şəraitdə Türkiyənin Ermənistanla sərhədini açmasının yolverilməz olduğunu vurğulamaqla yanaşı, qeyd edilirdi ki, bu hadisə təcavüzkarı işğalçılıq siyasətini davam etdirməyə ruhlandıraraq, münaqişənin ədalətli həlli prosesinə böyük zərbə vuracaq, azərbaycanlıların Dağlıq Qarabağa və ətraf rayonlara qayıtmalarına əngəl törədəcək.

2009-cu il dekabrın 16-da "Azərbaycan Respublikası Dağlıq Qarabağ bölgəsinin Azərbaycanlı İcması" İctimai Birliyi adından ABŞ prezidenti Barak Obamaya göndərilmiş məktubda vurğulanırdı ki, Azərbaycan və Ermənistan prezidentləri arasında sülh danışıqlarının getdiyi bir mərhələdə ABŞ Konqresinin Dağlıq Qarabağdakı qondarma bir rejimə 8 milyon dollar məbləğində vəsait ayırması Dağlıq Qarabağın Azərbaycanlı İcmasını silah gücü ilə öz doğma torpaqlarından çıxararaq, etnik təmizləmə siyasəti həyata keçirən separatçı rejimin və Ermənistanın dəstəklənməsi deməkdir. Bu hadisə Dağlıq Qarabağ icmalarına münasibətdə balansın pozulmasına gətirib çıxara biləcək bir amildir və ona görə də göstərilən hər hansı siyasi-iqtisadi və maliyyə dəstəyi hər iki icmaya bərabərhüquqlu yanaşma nümayiş etdirilməsi istiqamətində olmalıdır ki, bu da münaqişənin ədalətli həllinə kömək edə bilər.

**VAHİD ÖMƏROV,**
***fəlsəfə üzrə fəlsəfə doktoru***

# səs

Son səhifə 16 noyabr


## Tramp bu dəfə Misiri məktubla hədələdi!





ABŞ hökuməti Rusiyadan qırıcı təyyarələr almaq barədə qərar verən Misiri sanksiyalar tətbiq etməklə təhdid edib. Adının çəkilməsini istəməyən Birləşmiş Ştatlar rəsmisi "Bloomberg" agentliyinə bildirib ki, Vaşinqton bununla bağlı Qahirəyə rəsmi məktub göndərib.

Əl Cəzirə telekanalı xəbər verir ki, məktubda Misirin Rusiyadan qırıcı təyyarələr alacağı təqdirdə bu ölkəyə ABŞ-dan hərbi yardımın dayandırılacağı və müasir silah və texnikanın tədarükünün məhdudlaşdırılacağı qeyd olunub. Məktubu Dövlət katibi Maykl Pompeo və Müdafiə naziri Mark Esper imzalayıblar. Tramp administrasiyasının Misir Prezidenti Əbdülfəttah əs-Sisi ilə yaxın əlaqələr qurmağa çalışması fonunda bu cür məktubun göndərilməsi təəccüblə qarşılanıb. ABŞ Misirin ən əsas silah tədarükçüsüdür, amma Rusiya son illər Yaxın Şərqdəki silah bazarında fəallığını artırıb. Moskvanın Ankara və İranla hərbi-texniki əməkdaşlığı NATO-nun əsas dövləti olan ABŞ-da narahatlıq doğurur.

## Abşeronda evdən oğurluq edən şəxslər saxlanılıb

Abşeron rayonunda evdən 3000 manat və 1500 manat dəyərində qızıl-zinət əşyaları oğurlanıb. Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat Xidmətindən məlumat verilib. Belə ki, Abşeron Rayon Polis İdarəsinin əməkdaşlarının keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində noyabrın 12-də rayon ərazisindəki evlərin birindən 3000 manat, 1500 manat dəyərində qızıl-zinət və gümüş əşyalar oğurlanıb. Aparılan əməliyyat-axtarış tədbirləri nəticəsində oğurluqda şübhəli bilinən Bakı şəhər sakinləri O.Paşazadə və əvvəllər məhkum olunmuş Ə.Savdumov saxlanılıb. Faktla bağlı Abşeron Polis İdarəsində araşdırma aparılır.

## DİN: Əvvəlki dövrlərdən bağlı qalmış 12 cinayətin açılması təmin olunub

Respublikanın daxili işlər orqanları ötən gün ərzində törədilmiş 25 cinayətin üstünü "isti izlər"lə açıblar. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlki dövrlərdən bağlı qalmış 12 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 25 nəfər, o cümlədən borclu şəxs qismində axtarılan 14 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib.

Respublikanın avtomobil yollarında baş vermiş dörd ağır yol-nəqliyyat hadisəsi nəticəsində dörd nəfər ölüb, bir nəfər xəsarət alıb. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 11 fakt müəyyənləşdirilib. Cinayət törətməkdə şübhəli bilinən 39 nəfər saxlanılıb.

## Balakəndə törədilmiş qətl hadisəsi ilə bağlı cinayət işi başlanıb

Balakən rayon sakini Elvin Balayevin noyabrın 14-də kəsilmiş-deşilmiş xəsarətlə xəstəxanaya yerləşdirilməsi və orada ölməsi barədə rayon polis şöbəsinə məlumat daxil olub. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, dərhal rayonun polis və prokurorluq orqanlarının əməkdaşları tərəfindən müvafiq tədbirlər həyata keçirilib. İstintaq-əməliyyat tədbirləri ilə hadisənin həmin gün Hənifə kəndi ərazisində kənd sakini Z.Layıcov tərəfindən münaqişə zəminində törədilməsi müəyyən edilib. Qəsdən adam öldürməkdə şübhəli bilinən Z.Layıcov təxirəsalınmaz əməliyyat-axtarış tədbirləri nəticəsində polis əməkdaşları tərəfindən saxlanılıb. Faktla əlaqədar Cinayət Məcəlləsinin 120-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

## YAP Samux rayon təşkilatının gəncləri Nəsiminin 650 illiyi münasibətilə keçirilən ağacəkmə aksiyasında fəal iştirak edirlər



Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə "Bir gündə 650 min ağac əkək" aksiyası, hər yerdə olduğu kimi, Samux rayonunda da rəğbətlə qarşılanıb. YAP Samux rayon təşkilatından aldıbımız məlumata görə, Prezident İlham Əliyevin Sərəncamı ilə mütəfəkkir şair İmadəddin Nəsiminin 650 illik yubileyi ilə əlaqədar 2019-cu ilin "Nəsimi İli" elan edilməsi, Birinci vitse-prezident Mehriban Əliyevanın bir gündə 650 min ağac əkilməsi ilə bağlı təşəbbüsü böyük sənətkarın adının əbədiləşdirilməsi, beynəlxalq aləmdə təbliği, Azərbaycanın ədəbi və mədəni irsinin tanıdılması baxımından xüsusi əhəmiyyət daşıyır. Bu təşəbbüs Nəsimi dühasının təbliği ilə bərabər, ölkəmizin yaşıllıqlar diyarına çevrilməsinə də bir vəsilədir.

Aksiya Samux rayon gəncləri tərəfindən də yüksək qiymətləndirilib. Belə ki, aksiya ərəfəsində onlar hər gün səhər ərazilərə gedir, sahələri təmizləyir, çalalar qazaraq ağacəkmə kampaniyasının başlanmasını səbirsizliklə gözləyirdilər. Bu baxımdan, YAP Samux rayon təşkilatının gəncləri böyük ruh yüksəkliyi ilə aksiyaya qoşulublar və təbiətimizə gözəllik gətirəcək bu aksiyada böyük fərəhlə iştirak edirlər. Onlar bu xeyirxah aksiyanın uğurla həyata keçməsi üçün öz səylərini əsirgəmirlər.

Qeyd edək ki, bu təşəbbüs dahi şairin irsinin təbliği ilə bərabər, həm də ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə, gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərin həllində birgə fəaliyyətə səsləyir.

**Rövşən RƏSULOV**

## "Nar" Göyçayda keçirilən festivalı abunəçiləri ilə birgə qeyd etdi

***Azərbaycan xalqının zəngin keçmişi, adət-ənənələri və milli-mədəni irsinə bağlılıq nümayiş etdirən "Nar", hər il olduğu kimi bu il də Göyçayda keçirilmiş Nar festivalında aktiv iştirak edib. Mobil operator festivalın keçirildiyi ərazidə böyük "Nar" çadırı quraşdırıb və iştirakçılar üçün bayram əhval-ruhiyyəsi yaradıb.***

Təşkil edilən müsabiqələr və əyləncəli oyunlar ziyarətçilər tərəfindən maraqla qarşılanıb və tədbir iştirakçıları müxtəlif hədiyyələrlə mükafatlandırılıb. Bundan başqa, "Nar" çadırına yaxınlaşanlar üçün 2 gün ərzində xüsusi müsabiqə keçirilib və qalib gələnlərə son model smartfon hədiyyə olunub.

Mobil operator Nar festivalı ilə əlaqədar sosial media istifadəçiləri və media nümayəndələri üçün Göyçaya tur da təşkil edib. Noyabrın 4-də sosial mediada keçirilmiş müsabiqədə qalib gəlmiş 10 nəfər "Nar" əməkdaşları ilə birlikdə Göyçaya səfər edib və "Nar" çadırında təşkil edilmiş tədbirlərdə aktiv iştirak edib.

Bundan başqa, "Nar" əməkdaşları ziyarətçilərə mobil operatorun fəaliyyət istiqamətləri, şəbəkənin təkmilləşdirilməsi ilə bağlı görülən işlər, 2019-cu il ərzində ölkə ərazisində qurulan yeni baza stansiyaları və digər işlər barədə geniş məlumat veriblər.

Qeyd edək ki, Göyçay bütün dünyada məşhur olan Azərbaycan narının vətəni hesab olunur. Nar festivalı hər il noyabr ayında möhtəşəm bayram əhval-ruhiyyəsində keçirilir.

"Nar" kampaniyaları, məhsul, xidmət və tarifləri haqqında məlumatı nar.az internet səhifəsindən öyrənmək olar. "Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. "Nar" şəbəkəsi hazırda ölkə əhalisinin 97,5 %-ni əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.

## ELAN

**Şabran rayon sakini Şamxalov Fikrət Abdulla oğluna məxsus avtomobilin 90 LB 809 nömrəli dövlət qeydiyyat nişanı itdiyi üçün etibarsız sayılır.**

* * *

**Azərbaycan Dövlət Pedaqoji Universitetinin İnformatika ixtisası üzrə I kurs tələbəsi Abdullayeva Aytac Həsrət qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**